15_27 IYUl-QARA.qxd 4/24/2025 10:58 PM Page 1

UNİKAL

№15 (2245) 25 aprel 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az



# Bankları gözləyən böyük təhlükə




Səh.8

## Ermənistan Avropa Sülh Fondu vasitəsilə müharibəyə hazırlaşdırılır

*Avropa İttifaqı (Aİ) ilə Ermənistan arasında Avropa İttifaqının Ermənistandakı Missiyasının, yəni, EUMA-nın statusu ilə bağlı 2023-cü il dekabrın 8-də imzalanan razılaşma sənədinin 5-ci və 6-cı maddələrində Missiyaya, onun əməkdaşlarına verilən imtiyazlardan və immunitetlərdən söz açılır. Məlum olur ki, Missiyaya aid obyektlərdən tutmuş sənədlərə kimi hər bir şey toxunulmaz hesab edilir. Ermənistanın hüquq mühafizə və ya xüsusi xidmət orqanlarının onlara qarşı hər hansı bir hərəkəti qadağan olunur. "Unikal" xəbər verir ki, bu fikirləri Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının sədri deputat Ramid Namazov parlamentin "Cənubi Qafqazda sabitliyə "sülh missiyası" adlı hibrid hücum" mövzusunda ictimai müzakirədə səsləndirib. O bildirib ki, razılaşmaya əsasən, Missiyanın əməkdaşları heç bir halda...*

Səh.9

## "Çin Azərbaycanın ən böyük ticarət tərəfdaşlarından biridir"



*Milli Məclisin deputatı Vüqar Bayramov "Unikal"a müsahibə verib. O, Azərbaycanla Çin arasında viza rejiminin ləğv olunmasının əhəmiyyətindən, imzalanan digər sənədlərin iki ölkənin iqtisadiyyatına hansı töhfələr verəcəyindən və Çin şirkətlərinin azad olunmuş ərazilərin qurulmasında necə iştirak...*

Səh.4

## Azərbaycanda kimlər daha tez pensiyaya çıxacaq?



*Milli Məclisin yaz sessiyasında "Əmək pensiyaları" haqqında qanuna təklif edilən dəyişikliklə bağlı müzakirələr ictimaiyyətdə müxtəlif fikirlərin yaranmasına səbəb olub. "Əmək pensiyaları haqqında" Qanunun 6.2-ci maddəsində uşaqlara görə güzəştli şərtlərlə yaşa görə əmək pensiyası olan...*

Səh.10

## Ədalət Partiyasında qalmaqal



*Ədalət Partiyasının IX Qurultayına hazırlıq üzrə Təşkilat Komitəsi bəyanat yayıb. "Unikal" daxil olan bəyanatda bildirilib ki, Partiya Ali Məclisinin aprelin 19-da keçirilmiş iclasında 17 may 2025-ci ildə Ədalət Partiyasının növbəti IX Qurultayının keçirilməsi haqqında qərar qəbul edilib və Qurultaya hazırlıq üzrə...*

Səh.9

15_27 IYUI-QARA.qxd 4/24/2025 11:00 PM Page 2



# "Onları efirə kloun kimi çağırırlar" - Ayan



***"Biz hər məclisimizi, səfərimizi sosial şəbəkədə paylaşmırıq. Bu gün Xalq artistləri Aygün Kazımova, Röya Ayxan, Tünzalə Ağayeva, Əməkdar artist Manana Çaparidze və həmçinin mən də hər şeyə iş rakursundan baxırıq. İşlərin peşəkarcasına təqdim olunmasını istəyirik. Bizim arxamızda böyük komanda çalışır. Biz məclislərə tək getmirik, yanımızda art direktorumuz, stilistimiz, səs rejissorumuz olur".***

"Unikal" Axşam.az-a istinadən xəbər verir ki, müğənni Ayan Babakişiyeva ad çəkmədən bəzi ifaçıların ünvanına sərt sözlər deyib: "Yoxsa, bu gün Zümrüdün, sabah başqasının, o biri gün isə digərinin efirindəyəm. Hesab edirlər efirdə olduqca insanlar düşünəcəklər ki, bunlar da şou-biznesdədirlər. Onlar şou-biznesə daxil olmayıblar. Sadəcə həmin gün sən lazımsan. Gündəm deyirlər, günün sadəcə dəmini yaratmaq üçün lazımsan. Sonra efirdə olmayacaqsan və inan ki, tamaşaçıların yadına düşməyəcəksən. Heç kimi aşağılamıram. Sənin bəlli bir dinləyicin var və hamısı eyni olaraq sizə qulaq asır.

Biz bu sənətdə canımızı fəda etmişik. Təqdimatlar hazırlayırdıq, Xalq artistlərini dəvət edirdik ki, qiymət verin, nəcədir? İndi bunlar arada efirə kloun kimi efirə çıxırlar. Bir efirdən sonra elə bilirlər ki, böyük sənətkardırlar. Day demirlər ki, həmin gün səni gülmək üçün çağırıblar. Bir bunu anlayın da... Özlərini Xalq artistləri ilə müqayisə edirlər. Baxırsan və deyirsən ki, ayıl, bu gün burada məsxərə üçünsən".

# "Əlinizdəki pulları gözə soxmayın" - Nüşabə Ələsgərli



***Əməkdar artist Nüşabə Ələsgərli toy məclislərində əllərində verilən pulları nümayiş etdirən həmkarlarını tənqid edib.***

Müğənni Şəbnəm Tovuzlunun toyda ona verilən şabaşı nümayiş etdirməsinə belə fikir bildirib: "Bu məclislərin də müəyyən qonorarı var. Əlavə olaraq toyda nəsə bağışlayırlar. Vaxtı ilə mənə də qızıllar bağışlayıblar. Bu həmişə olub. O vaxt göstərməmişik. Göstərəndə də nə olar ki? Mən belə şeyə pis baxmıram. Həm də təqdim etməyin forması var. Məsələn, mənə toyda pul verən kimi əlimdə sıxıram ki, görünməsin. Daha sonra köməkçim gəlir və ona verirəm. Mən o pulu əlimdə sağa-sola nümayiş etdirmirəm. Yəqin ki, sırf bu tamaşaçıları qıcıqlandırır. Pulu verən də bizim xalqımızdır, qazanan da bizim vətənin balasıdır. Sadəcə toyda pul verəndə kamera qarşısında oynatmayın. Gözümü açandan toyları xalq düşmənlərinin məclisi kimi pisləyiblər. Bu sənin, mənim balamın toyudur da... Bunun nəyi pisdir? Həmişə toy oxuyanları pisləyiblər. Toya ayıb bir şey kimi baxıblar, elə bil özləri etməyiblər".



# Kişi Şəbnəmi qucaqlamaq istədi - Müğənni elə reaksiya verdi ki...

***Müğənni Şəbnəm Tovuzlu paytaxt məkanlarının birində səhnə alıb.***

Sənətçiyə səhnədə çıxışı zamanı yaşlı kişi fanatı yaxınlaşaraq birlikdə foto çəkdirmək istəyib.

Şəbnəmi qucaqlayaraq səmimi poz vermək istəyən kişinin arzusu ürəyində qalıb. Müğənni əl hərəkəti ilə bunun qarşısını alıb.

Sözügedən görüntülər sosial şəbəkələrdə müzakirələrə səbəb olub. İzləyicilərin bəziləri ifaçının hərəkətini kişinin aztəminatlı təbəqədən olması ilə əlaqələndiriblər.

# Flora Kərimovanın səsi batdı



***Xalq artisti Flora Kərimovanın səsi batıb.***

"Unikal" xəbər verir ki, bu barədə aparıcı Mətanət Əliverdiyeva bildirib: "Əməkdaşlarımız Flora xanımla əlaqə saxladı. Nasazdır, səsi batıb. Danışa bilmir. Özünüzü qoruyun. Siz bizə lazımsınız". (Axşam.az)

# Sevda həmin qonaqlara görə verilişə gəlmədi

***Müğənni Sevda Sanəliyeva İlqar Mikayıloğlunun proqramına qatılmaqdan imtina edib.***



Buna səbəb proqramda onunla birlikdə yer alacaq qonaqlar olub. Bu haqda "Günə bax" verilişində deyilib.

İ.Mikayıloğlunun oğlu Nahid bildirib ki, Sevda əvvəlcə verilişə gəlməyə razılıq verib. Daha sonra proqramda yer alacaq digər qonaqların siyahısını soruşub və qatılmayacağını deyib. O bildirib ki, Sanəliyeva "Qonaqların siyahısını gec atdınız. Mən necə hazırlaşım" sözlərini söyləyib.

Verilişdə aktyor İslam Mehrəliyev, aparıcı Firuzə Cəlilova, müğənni Kəmalə Qaramollayeva yer alıblar.

# "Bunlar mənə lazım deyil" - Müğənni Samira

***"İnsan daxilən necədirsə, onu heç nə dəyişə bilməz. Nə şöhrət, nə var-dövlət, nə mühit. Olduğum kimiyəm. Olduğumdan da çox razıyam".***

Bu sözləri müğənni Samirə ƏliMəryəm "Xəzər axşamı" verilişində deyib. Sənətçi gündəmə çox gəlmək istəmədiyini açıqlayıb: "Özümə çox sərhədlər qoymuşam. İstəmərəm o sərhədləri keçim. Allah ağlımı başımdan almasın. Sadəcə öz işimlə məşğulam. İşim sənətimlə məşğul olmaq, mahnılar oxumaq, klip çəkdirmək, verilişlərə çıxıb sənətdən danışmaqdır. Evdə danışıb, nələrəsə görə gileylənirik. Amma heç mən onu da danışmıram. Çalışıram ruhuma o neqativi yapışdırmayım. Lazım da deyil".

15_27 IYUl-QARA.qxd 4/24/2025 11:01 PM Page 3






## Leyla Əliyeva Pekin Xarici Dillər Universitetində

***Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Pekin Xarici Dillər Universitetində olub.***

"Unikal" xəbər verir ki, universitetin prorektoru Gao Qanq və burada Azərbaycan dili üzrə təhsil alan çinli tələbələr ilə görüş zamanı Azərbaycanla Çin arasında əlaqələrin genişlənməsində gənclərin, o cümlədən iki ölkənin təhsil sistemində bu istiqamətdə həyata keçirilən layihələrin rolu qeyd edilib. Bu baxımdan Azərbaycan mədəniyyətini öyrənib tədqiq və təbliğ etməyə maraqlı olan Pekin Xarici Dillər Universitetindəki Azərbaycan dili kafedrasının fəaliyyətinin, universitetdə Azərbaycan dili üzrə kadrların hazırlanmasının əhəmiyyəti diqqətə çatdırılıb. Bildirilib ki, universitetin tədris proqramına Azərbaycan dili ilə yanaşı, Azərbaycan tarixi, mədəniyyəti, ədəbiyyatı fənləri də daxildir.

Heydər Əliyev Fondu ilə Pekin Xarici Dillər Universiteti arasında 10 ilə yaxın davam edən əməkdaşlıq çərçivəsində bir sıra layihələrin həyata keçirildiyi, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə 2019-cu ildən Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində (UNEC) distant Çin dili kurslarının təşkil olunduğu diqqətə çatdırılıb.

Görüş zamanı Heydər Əliyev Fondu ilə Pekin Xarici Dillər Universiteti arasında bu il ərzində anlaşma memorandumunun imzalanması barədə qərar qəbul edilib.

Daha sonra universitetin Azərbaycan dili kafedrası ilə tanışlıq olub. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva kafedranın fəaliyyətinin genişləndirilməsi ilə bağlı nəzərdə tutulan tədbirləri diqqətə çatdırıb. Heydər Əliyev Fondunun müxtəlif sahələr, o cümlədən Azərbaycan mədəniyyətinin tanıdılması üzrə nəşrlərinin Çin dilində çap olunmasının vacibliyi qeyd edilib.

## Magistraturaya qəbul imtahanı onlayn keçiriləcək - DİM rəhbəri açıqladı

***Azərbaycanda dövlət qulluğuna qəbul imtahanları və digər kütləvi qiymətləndirmə prosesləri mərhələli şəkildə elektron formata keçirilir.***

"Unikal" xəbər verir ki, bu fikirləri jurnalistlərə açıqlamasında Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə deyib.

O bildirib ki, may ayında peşəkar mühasiblik sertifikatı imtahanı da elektron formada keçiriləcək: "Növbəti mərhələdə isə rezidentura imtahanlarının elektron formada təşkili nəzərdə tutulur.

Eyni zamanda, magistraturaya qəbul imtahanlarının elektron formata keçirilməsi ilə bağlı hazırlıqlar da gedir. Bu proses həm Azərbaycan, rus və ingilis dillərində təhsil alan məzunlar üçün tətbiq ediləcək. Beləliklə, bütün abituriyentlər vahid elektron sistem üzərindən imtahan vermək imkanına malik olacaqlar".

# Bankları gözləyən böyük təhlükə

## Onlardan hansıları və niyə bağlanma riski ilə üzləşə bilərlər? - Bir sual, çoxlu cavab!

***2024-cü ildə Azərbaycanın ən böyük 3 bankının həm kredit, həm də depozit portfeli üzrə təmərküzləşmə səviyyəsi artıb. Bu barədə Azərbaycan Mərkəzi Bankının (AMB) "Maliyyə Sabitliyi hesabatı"nda bildirilir. Sənədə əsasən, 2023-cü illə müqayisədə ən böyük 3 bankın kredit portfeli üzrə bazar payı 1,7 faiz bəndi artaraq 54,1 %, depozit portfeli üzrə bazar payı isə 1,8 faiz bəndi artaraq 67,4 % təşkil edib. Aktivlər üzrə isə ən böyük 3 bankın bazar payında nəzərəçarpan dəyişiklik olmayıb (63 %).***




Bu vəziyyət ölkə iqtisadiyyatı və bank sektoru üçün nə vəd edir?

Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti Emin Qəribli mövzu ilə bağlı "Bizimyol.info"ya bildirib ki, burada bir təhlükə yoxdur. Onun sözlərinə görə, Türkiyə əhalisi Azərbaycandan təxminən yeddi dəfə çoxdur, amma bankların sayına baxsaq, bizdə 25, onlarda təxminən 60-dır: "Bizdə əslində inhisar formalaşır. Gələcəkdə yeni banklar da yaranacaq. Təbii ki, dövrün tələbləri ilə ayaqlaşmayan banklar da çox güman ki, bağlana bilər. Mən burada bir problem görmürəm. Vaşinqton konsensusu var idi. Orada ayrı- ayrı problemlər vurğulanırdı. Xüsusən də burada iri müəssisələrin yaranmasını bizə qəbahət görürdülər. Araşdıraq: misal, telefon bazarı... Neçə faiz iri şirkətlər, xüsusən də Apple və digər şirkətlər bu bazarı zəbt ediblər? Kompüter və digər şirkətlər var ki, bir şirkət bir çox müəssisələrin səhmlərini alıb və bazarın da mühüm hissəsini onlar zəbt ediblər. Bu, o demək deyil ki, problem yaranacaq. Xeyr, güclü institutlar formalaşır. Kommersiya bankları yeni dövrə uyğun xarici investisiya cəlb eləmirlər. Adlarını çəkmək istəmirəm, amma elə kommersiya bankları var ki, bu gün artıq sazişlər imzalayıblar və xarici investorları cəlb etmək istəyirlər".

Bunun özünü bir stimul hesab edən iqtisadçının fikrincə, bazarda qalmaq üçün yeni bazarın tələblərinə uyğun addım atılmalıdır. "Bu gün Donald Trampın siyasətinə baxsaq görərik ki, iri rəqabət qabiliyyətli müəssisələrin sayının artırılmasına dair səylər göstərir. Mənə elə gəlir, bu, bizə yeridilən lüzumsuz ideologiyadır. Mən burada tam əksinə, yeni, güclü institutların, rəqabətqabiliyyətli müəssisələrin yaradılmasının tərəfdarıyam. Daxili bazarda bir çox məhsullar xaricdən gəlir. Bu xaricdə olanda bir təhlükə görmürük, amma daxildə olanda biz təhlükə görürük".

İqtisadçı onu da qeyd edib ki, dünya iqtisadiyyatında ayrı-ayrı ölkələrin hansısa nomenklatura məhsullar üzrə kifayət qədər payı çoxdur və ya müəssisələrin payı çoxdur, amma heç kimə irad bildirilmir. Bunu normal proses kimi qiymətləndirən Qəribli banklara tövsiyə edib ki, öz siyasətlərinə gələcəyə yönəlik yenidən baxsınlar.

Onu da deyək ki, son illər Azərbaycanda bağlanan bankların sayı artıb. Təkcə son 4 il ərzində ümumilikdə 7 bankın lisenziyası ləğv olunub. Bəs görəsən 2025-ci ildə hansı bankları bağlanma təhlükəsi gözləyir?

Bank məsələləri üzrə ekspert Əkrəm Həsənov açıqlamasında bildirib ki, bu mövzuda hansısa bankın adını çəkmək düzgün deyil: "Çünki bu, həmin bank üçün təhlükə yarada bilər. Ancaq hazırda hər hansı bir bankın ağır vəziyyətdə olması ilə bağlı fakt yoxdur. Yəni bu il ərzində heç bir bankın bağlanması gözlənilmir. Ola bilsin ki, bəzi banklar birləşsin. Lakin bağlanma ehtimalı olan bank yoxdur. Hazırkı dövrdə güclü banklarla yanaşı, zəif banklar da var".

Ölkədə sistem əhəmiyyətli 3-4 bankın mövcud olduğunu deyən ekspert bununla belə onların da bağlanmasını real görmədiyini deyib: "Digər bankların isə prinsip etibarilə vəziyyəti pisləşərsə, müəyyən risklər yarana bilər. Nəzərə almaq lazımdır ki, vəziyyət dəyişə bilər. Dünyadakı iqtisadi proseslər və valyuta məzənnəsindəki dəyişikliklər bank sektorunun vəziyyətinə təsir göstərə və istiqamətini dəyişdirə bilər".

Xatırladaq ki, 2025-ci ilin yanvar- fevral ayında Azərbaycan bankları 179.4 mln. manat xalis mənfəət əldə etmişdi. Həmin vaxt yayılan məlumatlardan belə aydın olurdu ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 14,3% azdır. Belə bir vəziyyətdə bəzi bankların bağlana biləcəyinə dair iddialar gündəmə gəlmişdi. Sözügedən iddialara cavab olaraq isə iqtisadçı ekspert Əli Əhmədov "Bey Media"ya açıqlamasında bildirmişdi ki, cəmi iki ayın nəticəsi əsasında hər hansı bir bankın bağlana biləcəyi ilə bağlı fikir yürütmək doğru olmaz. Sitat: "Çünki ilin əvvəlidir və bank biznesində də müəyyən mövsümiliklər mövcuddur... Ölkədə bağlanması gözlənilən, problemli vəziyyətdə olan bir bank yoxdur. Çünki bütün banklar Mərkəzi Bankın mütəmadi və sərt monitorinqi altında fəaliyyət göstərirlər... Hətta bir bankın zərərlə işləməsi də onun bağlanacağı anlamına gəlmir. Bankların nizamnamə kapitalı var, səhmdarların yatırdığı vəsaitlər mövcuddur, eyni zamanda bölüşdürülməmiş mənfəət və əvvəlki illərin zərərləri nəzərə alınır. Bu prosesləri banklar öz fəaliyyətləri çərçivəsində idarə edirlər. Bəzən banklar iri yatırımlar etdikdə müvəqqəti olaraq mənfəətləri azala və ya zərərə keçə bilər. Bu isə tamamilə normal biznes prosesidir və bir bankın bağlanması ilə nəticələnə bilməz".

Onu da deyək ki, "Unikal"ın araşdırması nəticəsində Azərbaycandakı bankların 2025-ci ilin 1-ci rübü (yanvar-mart) üzrə maliyyə göstəricilərindən 22 bankın hamısının ilk rübü xalis mənfəətlə başa vurduğu aydınlaşıb. Bu da 2025-ci ildə hansısa bankın bağlanma ehtimalının olmadığına dair ekspert rəylərini qüvvətləndirir.

***Sənan Mirzə***

# Ermənistan Avropa Sülh Fondu vasitəsilə müharibəyə hazırlaşdırılır

## Komissiya sədri: "Avropa İttifaqı Cənubi Qafqazı yeni münaqişəyə sürükləyir"



***Avropa İttifaqı (Aİ) ilə Ermənistan arasında Avropa İttifaqının Ermənistandakı Missiyasının, yəni, EUMA-nın statusu ilə bağlı 2023-cü il dekabrın 8-də imzalanan razılaşma sənədinin 5-ci və 6-cı maddələrində Missiyaya, onun əməkdaşlarına verilən imtiyazlardan və immunitetlərdən söz açılır. Məlum olur ki, Missiyaya aid obyektlərdən tutmuş sənədlərə kimi hər bir şey toxunulmaz hesab edilir. Ermənistanın hüquq mühafizə və ya xüsusi xidmət orqanlarının onlara qarşı hər hansı bir hərəkəti qadağan olunur.***

"Unikal" xəbər verir ki, bu fikirləri Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının sədri deputat Ramid Namazov parlamentin "Cənubi Qafqazda sabitliyə "sülh missiyası" adlı hibrid hücum" mövzusunda ictimai müzakirədə səsləndirib.

O bildirib ki, razılaşmaya əsasən, Missiyanın əməkdaşları heç bir halda həbs oluna və ya saxlanıla bilməz, Ermənistanın cinayət yurisdiksiyasından bütün hallarda toxunulmazlığa malikdirlər. Eyni zamanda, onlar fəaliyyətləri ilə bağlı dedikləri və ya yazdıqları fikirlərə görə mülki və inzibati məsuliyyətdən azad olunurlar, şahid qismində ifadə vermək məcburiyyətində deyillər. Ermənistan ərazisində onlar barəsində cinayət hüquqi və intizam tədbirlərini yalnız vətəndaşı olduqları ölkənin müvafiq qurumları həyata keçirə bilər. Sənədin 11-ci maddəsində göstərilir ki, Ermənistan rəsmiləri EUMA və personalı ilə tam əməkdaşlıq etməli, onları dəstəkləməlidirlər. Onlara istənildiyi və ya zəruri hallarda lazım olan obyektlərə, ərazilərə və rəsmi nəqliyyat vasitələrinə, habelə sənədlərə, materiallara və məlumatlara effektiv girişi təmin etməlidirlər. On üçüncü maddəyə görə isə vəfat etmiş EUMA əməkdaşının ölüm səbəbinin müəyyənləşdirilməsi məqsədilə onun meyitinin göndərən ölkənin razılığı, EUMA və ya həmin ölkənin nümayəndəsinin iştirakı olmadan yarılması qadağandır.

"Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyasının qənaətinə görə, Missiya və əməkdaşlarına bu cür imtiyaz və immunitetin verilməsi onlara Ermənistan daxilində kəşfiyyat və casus fəaliyyəti ilə rahat məşğul olmaları üçün əlavə şərait yaradır. Bu toxunulmazlıq hüququ EUMA əməkdaşına məsuliyyətə cəlb olunmadan ölkəni tərk etmək imkanı verir", - deyə Ramid Namazov əlavə edib.

Komitə sədri qeyd edib ki, Avropa İttifaqı ilə Ermənistan Respublikası arasında imzalanmış EUMA-nın statusu ilə bağlı sənədin 4-cü maddəsinin 6-cı bəndində göstərilir ki, EUMA personalı etibarlı milli, beynəlxalq sürücülük və ya pilot vəsiqəsi olduğu təqdirdə, bu ölkənin daxilində nəqliyyat vasitəsi sürə və hava nəqliyyatı vasitəsini idarə edə bilər.

R.Namazov bildirib ki, 7-ci bəndə görə isə EUMA və personalı istifadələrində olan nəqliyyat vasitələri, avadanlıqlar və ləvazimatlar ilə Ermənistan ərazisində, o cümlədən onun hava məkanında sərbəst və məhdudiyyətsiz hərəkət edə bilirlər. Səkkizinci bəndə görə, EUMA personalına öz fəaliyyətləri ilə bağlı heç bir rüsum, vergi və ya digər ödənişlər etmədən yollardan, körpülərdən və hava limanlarından istifadə etmək hüquq verilir. Razılaşmadan belə anlaşılır ki, EUMA personalı Ermənistan ərazisində təyyarə və ya helikopteri (bunlar hərbi məqsədlər üçün də ola bilər) istədikləri vaxt manevsiz idarə etmək səlahiyyətinə malikdir. Prinsip etibarilə bu, EUMA-ya erməni pilotlara həm təlim keçməyə, həm də özlərinin hərbi əməliyyatlarda iştirakına imkan verir.

R.Namazov EUMA-nın regiondakı fəaliyyətləri, onun sülhə və etimad quruculuğuna mümkün töhfəsi" adlı sorğu keçirildiyini deyib. "Sosial Tədqiqatlar Mərkəzi tərəfindən əsasən "LinkedIn" platforması, habelə "Facebook" və "X" sosial media platformaları vasitəsilə Avropa İttifaqının Ermənistandakı Missiyasında (EUMA) hazırda fəaliyyət göstərən və əvvəllər Aİ Missiyasında xidmət keçən şəxslərə 36 açıq sual ünvanlanıb. Təəssüf hissi ilə qeyd olunmalıdır ki, respondentlərin 80%-i sualları cavablandırmamış, bəzi hallarda onlar dözümsüzlük nümayiş etdirmiş və ya EUMA-nın Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinə müraciət etməyi tövsiyə etmişlər. Eyni zamanda, verilən cavablar əsasında Missiyanın özü və fəaliyyəti haqqında tam olmasa da, bir sıra maraqlı məqamlar üzə çıxmışdır. Verilən cavablardan müəyyən olunmuşdur ki, EUMA mülki missiya olsa da, tərkibində keçmiş hərbçilər, hüquq mühafizə orqanlarının əməkdaşları və hərbi analitiklər çoxluq təşkil edir", - o bildirib.

Onun sözlərinə görə, missiyada işə başlamaq üçün ilk növbədə bir sıra sahələrdə müəyyən peşəkar təcrübəyə və Şəxsi Təhlükəsizlik İcazəsinə malik olmaq, xarici dilləri, o cümlədən rus və erməni dillərini bilmək üstünlük kimi qəbul edilir.

"EUMA-nın kəşfiyyatla məşğul olmadığı, lakin müəyyən kəşfiyyat elementlərinin mövcudluğu inkar edilməyib. Bir sıra əməkdaşların buraya ailələri ilə gəldiyi və yaradılan iş şəraitinin yüksək səviyyədə təşkil olunduğu qeyd edilir. Eyni zamanda, Ermənistandakı yaşayış şəraitinin, infrastruktur və səhiyyə sisteminin o qədər də ürəkaçan olmadığı bildirilir. Yerli əhalinin EUMA personalına münasibətinin normal olduğu, amma bəzən müəyyən narazılıqlarla da qarşılaşdıqları hallar olmuşdur. EUMA personalının öz arasında anlaşılmazlığa və ya münaqişələrə az rast gəlinsə də, rəhbərliyin çevik müdaxiləsi nəticəsində məsələnin qismən də olsa həll olunduğu qeyd edilir. Elə hal da baş verib ki, şəxs Missiyanı müqavilədən əvvəl tərk etmək məcburiyyətində olub. Bunun hansı səbəbdən olduğu qeyd edilməyib", - R.Namazov bildirib.

O qeyd edib ki, Avropanın aparıcı dövlətləri Missiyada əsas söz sahibidir və əməkdaşları çoxluq təşkil edir.

"Missiyanın Azərbaycana qarşı olduğu və Ermənistanı yeni müharibəyə hazırlaması ilə bağlı suala birmənalı olaraq neqativ cavab verilsə də, İrana və ya Rusiyaya qarşı olması ilə bağlı sualın üzərindən keçilmişdir. Missiyanın gələcək fəaliyyəti ilə bağlı isə, onun vacibliyi bildirilib və sayının bir neçə dəfə artırılmağının zəruri olduğu qeyd edilib. Vəziyyətdən asılı olaraq və ehtiyac olduğu təqdirdə, onun gələcəkdə mülki-hərbi missiya kimi də davam etməsinin nəzərdən keçirilə biləcəyi cavablar içində olub. Missiyanın Ermənistan və Azərbaycanla münasibətlərin normallaşmasına verdiyi töhfəyə gəlincə isə onun yalnız Ermənistan tərəfində fəaliyyət göstərməsi qeyd oluna bilər. Respondentlər Ermənistan və Azərbaycan arasındakı keçmiş münaqişə barədə məlumatlı olub-olmadıqları ilə bağlı suala müsbət cavab vermişlər. Azərbaycan tərəfinin Missiyaya münasibəti barədə mətbuatdan eşitdiklərini, əvvəllər Azərbaycana heç zaman səfər etmədiklərini, lakin gələcəkdə belə bir fürsət olacağı təqdirdə səfər etmək niyyətində olduqlarını bildirmişlər. Azərbaycan tərəfindən onlara qarşı sanksiyaların tətbiq ediləcəyi təqdirdə reaksiyalarının necə olacağı ilə bağlı suala cavab verilməmişdir. Həmçinin EUMA-nın fəaliyyətinin Azərbaycanda cinayət tərkibi yaratdığı və on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılması ilə bağlı məsələdən xəbərdar olmadıqları bildirilmişdir", - R.Namazov bildirib.



# Əvəz Zeynallı yenidən tibbi komissiyadan keçəcək

***"Xural" TV-nin həbsdə olan rəhbəri Əvəz Zeynallının məhkəməsi keçirilib.***

"Unikal"ın məlumatına görə, vəkil Rəşad Əliyev Əvəz Zeynallının vəziyyətinin kritik olduğunu bildirib.

Əvəz Zeynallı deyib ki, azadlığa buraxılması ilə bağlı sürətli və operativ qərar verilməsini istəyir.

Nizami Rayon Məhkəməsində hakim Nigar Qədirlinin sədrliyi ilə keçirilən prosesdə onun xəstəliyinin yoxlanılması üçün tibbi şəhadətləndirilməyə göndərilməsi ilə bağlı qərar qəbul edilib.

# Ədalət Partiyasında qalmaqal - Ali Məclisin səlahiyyətlərinə son qoyuldu

***Ədalət Partiyasının IX Qurultayına hazırlıq üzrə Təşkilat Komitəsi bəyanat yayıb.***



"Unikal" daxil olan bəyanatda bildirilib ki, Partiya Ali Məclisinin aprelin 19-da keçirilmiş iclasında 17 may 2025-ci ildə Ədalət Partiyasının növbəti IX Qurultayının keçirilməsi haqqında qərar qəbul edilib və Qurultaya hazırlıq üzrə Təşkilat Komitəsi yaradılıb: "Ali Məclis sədri və müavinlərinin məlumatları olmasına baxmayaraq, iclasa planlı şəkildə gəlməmiş, bununla da iclası pozmağa çalışmışlar. Bu alınmadıqda isə qərara veto qoyulması barədə bəyanat yaymışlar. Bəyanatda göstərilənlərdən heç biri əsas vermir ki, Ali Məclisin qərarına veto qoyulsun.

Birincisi, Siyasi Şura üzvlərinin Ali Məclisin iclasında iştirakı vacib deyil, çünki Siyasi Şura üzvləri Ali Məclisin üzvləri deyil və yalnız dəvət edildikləri halda iclasa qatıla bilərlər.

İkincisi, Ali Məclis sədri, onun müavinləri bilərəkdən iclasa gəlməmiş, sağlam rəqabət aparmaq əvəzinə partiyanın ofisinin kilidini dəyişərək, iclasın baş tutmasına əngəl olmağa çalışmışlar. Onlar iclasda iştirak etmədiyi halda partiya Nizamnaməsinə əsasən iclas səlahiyyətli hesab olunur və buna görə, onun qərarlarına veto qoyula bilməz.

Ali Məclisin 19 aprel 2025-ci ildə keçirilən iclasında Ədalət Partiyasının IX Qurultayına hazırlıq üzrə Təşkilat Komitəsi yaradılıb və bununla da Ali Məclisin səlahiyyətlərinə son verilmiş, onun sədrinin də səlahiyyət müddəti bitib. Beləliklə, 19 aprel 2025-ci il tarixdən etibarən Meydan Babayev Ədalət Partiyasının sədrinin səlahiyyətlərini icra etmir. Bütün səlahiyyətlər Ədalət Partiyasının IX Qurultayına hazırlıq üzrə Təşkilat Komitəsinə və onun sədrinə keçmişdir. Ədalət Partiyasının IX Qurultayına hazırlıq üzrə Təşkilat Komitəsi bəyan edir ki, növbəti IX Qurultay 17 may 2025-ci ildə keçiriləcək və bu məqsədlə bütün rayon təşkilatlarını Qurultayda fəal iştirak etməyə çağırır".

# Prezidentlə xanımının Çinə səfəri başa çatdı



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri aprelin 24-də başa çatıb.***

"Unikal" xəbər verir ki, Pekin Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı rəsmi şəxslər yola saldılar.

# Müəllimlərin iş yerinin dəyişdirilməsi üçün vakansiya seçimi mərhələsi başlayır

***Sabahdan dövlət ümumi təhsil müəssisələrində çalışan müəllimlərin iş yerinin dəyişdirilməsi müsabiqəsinin vakansiya seçimi mərhələsinə başlanılacaq.***



Bu barədə "Unikal"a İnsan Resursları Mərkəzindən məlumat verilib.

Qeyd olunub ki, müsabiqə qaydalarına əsasən, vakansiya seçimi ilkin olaraq şəhid ailəsi üzvləri üçün aktivləşdiriləcək.

Müsabiqə üzrə qeydiyyatdan keçmiş və elektron ərizəsi təsdiq olunmuş şəhid ailəsi üzvləri 25 aprel saat 11:00-dan etibarən şəxsi səhifələrinə daxil olaraq müvafiq vakant yer seçimi edə bilərlər. İlkin vakansiya seçimi 27 aprel saat 11:00-dək davam edəcək.

Növbəti mərhələdə isə digər müsabiqə iştirakçıları üçün vakansiya seçimi mərhələsi həyata keçiriləcək və bu barədə ictimaiyyətə məlumat veriləcək.

# Türkiyə XİN-dən Ermənistana çağırış




***Türkiyə Ermənistana ikitərəfli münasibətlərin normallaşmasına dəstəklə bağlı çağırış edib.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə Xarici İşlər Nazirliyindən bildirilib.

Qeyd olunub ki, radikal qruplaşmaların gərginlik yaratmaq səylərinə şərait yaradılmamalıdır.

Bildirilib ki, Türkiyə 1915-ci il hadisələri ilə bağlı həqiqətə və beynəlxalq hüquqazidd açıqlamaları rədd edir: "Belə bəyanatların heç bir əsası yoxdur".

Vurğulanıb ki, Türkiyə beynəlxalq aləmdə və regionda daim sülh, sabitlik və dialoq mühitinin təmin olunmasını müdafiə edib: "Ölkəmiz bu məqsədlə 1915-ci il hadisələrinin obyektiv şəkildə araşdırılması üçün arxivlərini açıb".

# "Allahdan ölkəmizi zəlzələdən qorumasını diləyirəm" - Ərdoğan

***"Zəlzələ kimi hamımızı sarsıdan, təsir edən məsələlərin gündəlik siyasətin polemikasında alət kimi istifadə olunmasını əsla bəyənmirik. Bu dövrlər siyasətlə məşğul olmaq deyil, birlik, bərabər olmaq, həmrəylik, millət olaraq qardaşlığımızı xatırlama zamanlarıdır".***

"Unikal" xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

O, belə həssas vaxtlarda heç kimlə mübahisə etmək istəmədiyini bildirib: "Üstəlik bunu millətimizə qarşı hörmətsizlik kimi qiymətləndiririk. Seldən kötük çıxarmağa çalışan fürsətçiləri vicdanla və məsuliyyət hissi ilə hərəkət etməyə dəvət edirik.

Artıq sadəcə danışmaq deyil, daş üstünə daş qoymaq vaxtıdır. Bəhanə axtarmaq, üzrxahlıq gətirməkdənsə, daha çox iş və fəaliyyət göstərməli, bütün enerjimizi ən qısa zamanda tikinti fondumuzu yeniləməyə sərf etməliyik. Biz hər şeyə qarşı çıxan marginalların nə deməsindən asılı olmayaraq, şəhərə çevrilmə layihələrinin sürətlə həyata keçirilməsinə diqqət yetirməliyik.



Biz əl-ələ verib birlikdə çalışsaq, qısa zamanda böyük irəliləyiş əldə etməyimiz tamamilə mümkündür. Çünki biz bunu etməyə qüdrətə, imkana və praktikliyə malik olan xalqıq. Yetər ki, enerjimizdən və resurslarımızdan düzgün istifadə edək. Aramızda nifaq səpilməsinə imkan verməyək. Allahdan ölkəmizi, millətimizi hər cür fəlakətdən, zəlzələdən, qəza və bəlalardan qorumasını diləyirəm".

# Aİ paylaşdığı yazıdan "soyqırımı" sözünü sildi



***Aİ-nin Ermənistandakı missiyası qondarma "erməni soyqırımı" ilə bağlı paylaşımına düzəliş edib.***

"Unikal" xəbər verir ki, missiyanın sosial şəbəkə hesabında əvvəlcə "Bu gün, aprelin 24-də "erməni soyqırımı" qurbanlarının xatirəsini ehtiramla yad edirik" mesajı yerləşdirilib. Lakin daha sonra bu ifadə "1915-1923-cü illərin qurbanlarının xatirəsinə" ifadəsi ilə əvəz edilib.

# "Şuşaya "Alazan" tipli raketlər atırdılar" - Zərərçəkmiş şəxs

***Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, David İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası aprelin 24-də davam etdirilib.***

"Unikal" xəbər verir ki, zərərçəkmiş şəxs Elxan Ələkbərov ifadəsində Şuşa Milis Şöbəsində çalışdığını, işğala qədər və işğal zamanı hadisələri gördüyünüyü bildirib.

E.Ələkbərov Ermənistanın Azərbayacana qarşı ərazi iddiaları ilə bağlı 1988-ci il sentyabrın 20-də yaşadığı Şuşa şəhərində komendant saatı tətbiq olunduğunu söyləyib. O, Baş prokurorun



böyük köməkçisi Vüsal Əliyevin suallarına cavab olaraq deyib: "Müxtəlif zamanlarda bizim Ağdama gediş-gəlişimizdə, digər rayonlarla əlaqə saxlamağımızda böyük problemlərlə qarşılaşırdıq. Yolda bizi daşa basırdılar. Rəhmətlik atamı da avtobusda başını daşla vurub yarmışdılar. Bəlkə də ölüm səbəbi elə ondan olub".

O, sonralar Şuşanın xüsusən Topxana və Şuşakənd istiqamətlərindən ağır artilleriya atəşinə məruz qaldığını bildirib: "Top atəşi ilə vururdular, "Alazan" tipli raketlər atırdılar. Məsələn, mülki şəxs Fərhadov Füzuli Aydın oğlu evində oturarkən "Alazan" tipli raket düşməsi nəticəsində qətlə yetirilmişdi".

Zərərçəkmiş şəxs 1991-ci il noyabr ayının 5-də Şuşanın Nəbilər kəndinə olan hücumdan da bəhs edib: "Kənd sakini, mülki şəxs Vahid Sevindiyov qətlə yetirildi. Həmin döyüşdə mən başımdan ağır güllə yarası aldım. Uzun müddət bunla bağlı xəstəxanada qaldım, sonra hospitaldan tərxis olub şəhərimizə qayıtdım".

O, Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarına cavabında Şuşanın növbəti dəfə artilleriya atəşinə tutulması zamanı milis şöbəsinin vurulduğunu, milis əməkdaşı Nizami Məmmədovun şəhid olduğunu deyib: "Daha iki milis işçisi yaralandı. Yaralılardan Sadıq Hüseynov sağalmadı, şəhid oldu".

Zərərçəkmiş şəxs su kəmərlərinin partladılması və yolların bağlanması nəticəsində Şuşa əhalisinin su və çörək çatışmazlığından əziyyət çəkdiyini deyib: "1989-cu ilin sonundan 1992-ci ilin mayına qədər davamlı atəş altında yaşamışıq".

Zərərçəkmiş şəxs Şuşanın işğalı barədə danışarkən əhalinin şəhəri tərk etməsi üçün Ermənistan silahlı qüvvələri tərəfindən heç bir dəhlizi verilmədiyini də söyləyib: "Mülki əhalinin çıxması üçün dəhliz verilsəydi, mütləq bilərdim. Heç bir dəhliz olmayıb. Əhali şəhəri çox əziyyətlə tərk etd. Məsələn, Firuzə adlı bir qadın yoxuşu qalxanda ürəyi partlayıb öldü".

# Türkiyədə zəlzələdə azərbaycanlıların xəsarət alması barədə məlumat yoxdur

***Türkiyədə baş vermiş zəlzələdə azərbaycanlıların xəsarət alması barədə məlumat yoxdur.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə deyib.

Qeyd edək ki, İstanbulda maksimum maqnitudası 6,2-yə çatan bir neçə zəlzələ baş verib. Son məlumatlara görə, zərərçəkənlərin sayı 236 nəfər təşkil edib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

15_27 IYUl-QARA.qxd 4/24/2025 11:03 PM Page 6



# YAP nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri davam edir

***Çində səfərdə olan Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti aprelin 24-də Urumçi şəhərində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının Siyasi Partiyalar Forumunun “İnkişaf imkanlarını paylaşmaq və iqtisadi qloballaşmanı təşviq etmək” adlı panel sessiyasında iştirak edib.***

YAP-dan “Unikal”a bildirilib ki, Tahir Budaqov panel sessiyasında çıxış edib. O qeyd edib ki, müstəqil dövlətlər öz sosial-iqtisadi resurslarına, demoqrafik potensialına, coğrafi mövqeyinə və digər bir sıra mühüm amillərə görə strateji prioritetlərini müəyyən edərək çağdaş reallıqlara və qlobal çağırışlara uyğun siyasət həyata keçirməklə davamlı inkişafa nail olmağa çalışırlar. Ölkələrin hər biri spesifik xarakter daşısa da, ümumən başlıca sosial-iqtisadi məqsədləri, o cümlədən makroiqtisadi sabitliyin, sosial inklüzivliyin təmini, vətəndaş rifahının yüksəldilməsi kimi məsələləri özündə ehtiva edir.




YAP Mərkəzi Aparatının rəhbəri vurğulayıb ki, istər Cənubi Qafqaz regionunun lider dövləti olaraq beynəlxalq müstəvidə yüksək nüfuza malik Azərbaycan, istərsə də dünyada aparıcı güc mərkəzlərindən biri kimi çıxış edən Çin özünəməxsus inkişaf modelinə sahibdir: “Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsi kimi yeni iqtisadi fenomen - “inkişafın Azərbaycan modeli” kimi səciyyələndirilən nümunə dünya siyasi və iqtisadi elitasının diqqətini cəlb edib. Müstəqillik illərində Azərbaycanın iqtisadi sistemi gücləndirilərək xarici təsirlərə davamlı hala gətirilmiş, maliyyə imkanları genişləndirilmiş, ümumdaxili məhsul, büdcə gəlirləri, xarici ticarət dövriyyəsi, ixracın həcmi dəfələrlə artmış, ölkənin strateji valyuta ehtiyatları xarici borcu 14 dəfə üstələmişdir”.

Ölkəmizin iqtisadi inkişafı prosesində milli və qlobal çağırışlardan irəli gələn vəzifələrin, o cümlədən ətraf mühitin mühafizəsi faktorunun ön plana çəkildiyini söyləyən Tahir Budaqov vurğulayıb ki, biomüxtəlifliyin, su hövzələrinin, o cümlədən Xəzər dənizinin ekoloji mühitinin mühafizəsi, ekoturizmin inkişafı, təbii sərvətlərdən və bərpaolunan enerji mənbələrindən səmərəli istifadə xüsusi diqqət mərkəzində saxlanılır. Azərbaycanın ötən ilin noyabr ayında COP29-a uğurla ev sahibliyi etməsi və bunun nəticəsi olaraq paytaxt Bakıda iqlim dəyişikliyinin fəsadlarına qarşı mübarizəyə dair qlobal əhəmiyyətli qərarların qəbulu isə ölkəmizin “yaşıl inkişaf” siyasəti həyata keçirməklə iqtisadi qloballaşmanın təşviqində mühüm rol oynadığını təsdiqləyir.

YAP Sədrinin müavini qeyd edib ki, Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı, təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi kimi prioritetlər öz əksini tapıb. Bu prioritetlərdən irəli gələn vəzifələrin yerinə yetirilməsi bütövlükdə isə qloballaşma şəraitində milli məqsədlərin gerçəkləşdirilməsi və dayanıqlı inkişafın təmini baxımından olduqca mühüm əhəmiyyətə malikdir.

Bu gün ölkəmizin dostu və etibarlı strateji tərəfdaşı olan Çinin inkişaf yolunun da dünyada böyük maraq və diqqətlə izlənildiyini, həyata keçirilən siyasət nəticəsində qazanılan uğurların beynəlxalq müstəvidə, o cümlədən Azərbaycanda yüksək qiymətləndirildiyini vurğulayan YAP Mərkəzi Aparatının rəhbəri bildirib ki, Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin yeni dövrdə bərabərlik, sosial ədalət, ictimai rifah, kollektiv inkişaf və güclü dövlətçilik prinsiplərinə əsaslanan Çin xüsusiyyətli sosializm konsepsiyası həm Çinin müstəqil dövlət kimi tərəqqisinə, həm də bəşəri mahiyyəti ilə xalqların xoşbəxt gələcəyinə hesablanmışdır.

Tahir Budaqov vurğulayıb ki, dövlət başçılarının iradələri sayəsində müxtəlif sahələri əhatə edən çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi məqsədilə ötən il iyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində qəbul olunan “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə”də əksini tapan mühüm məsələlərdən biri də qarşılıqlı fəaliyyət əsasında hər iki ölkənin davamlı inkişafının təşviqidir.

YAP Sədrinin müavini qeyd edib ki, Prezident İlham Əliyevin Çin Xalq Respublikasına rəsmi dövlət səfəri ölkələrimiz arasında əməkdaşlığın inkişafına əlavə təkan verəcək və yeni məzmun kəsb etməklə ümumi dəyərlərə, mədəni köklərə və qarşılıqlı iqtisadi maraqlara əsaslanan çoxəsrlik Azərbaycan-Çin münasibətlərinin növbəti tarixi mərhələsinin əsasını qoyacaqdır. Yeni Azərbaycan Partiyası və Çin Kommunist Partiyası isə ənənəvi dostluq münasibətlərinə və ötən ilin noyabrında imzalanmış əməkdaşlıq memorandumunun müddəalarına əsaslanaraq bu prosesdə fəal iştirak etmək və qarşıya qoyulan vəzifələri inamla yerinə yetirmək əzmindədir.

YAP nümayəndə heyəti forumdan sonra Çinin Çjetsyan vilayətinin Xançjou şəhərinə yola düşüb.

## Spiker Roma Papasının dəfn mərasimində iştirak edəcək



***Milli Məclisin sədri Sahibə Qafarova Roma Papasının dəfn mərasimində iştirak edəcək.***

”Unikal” xəbər verir ki, bu barədə parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi məlumat yayıb.

Qeyd olunub ki, spikerin başçılığı ilə parlament nümayəndə heyəti İtaliyanın Roma şəhərinə səfər edəcək.

S.Qafarova aprelin 26-da Santa Maria Maggiore bazilikasında keçiriləcək dəfn mərasimində Azərbaycanı təmsil edəcək, Roma Papasının son mənzilə yola salınması tədbirlərinə qatılacaq.

## Sumqayıt Şəhər Məhkəməsində yeni təyinat



***Sumqayıt Şəhər Məhkəməsinin hakimi Samir İsmayılov Kütləvi İnformasiya vasitələri ilə əlaqələrə məsul şəxs təyin edilib.***

”Unikal” xəbər verir ki, bu barədə şəhər məhkəməsinin yaydığı məlumatda bildirilib.

”Kütləvi İnformasiya vasitələrinin nümayəndələri Sumqayıt Şəhər Məhkəməsinin fəaliyyəti və baxılan işlər barədə məlumatların əldə olunması üçün hakim Samir İsmayılova müraciət edə bilərlər”, - məlumatda qeyd olunub.

## "Azərbaycanın 10 ili onların 100 illik inkişafına bərabərdir" - DTX Akademiyasının rəisi



***”Tələbələr sual verirdilər ki, necə oldu ki, ABŞ Konstitusiyası 1787-ci ildə qəbul edilib və bu günə kimi həmin Konstitusiyaya sadəcə 27 əlavə edilib. Bu əlavələrdən də ilk 10-u 1790-ci illərdə qəbul olunub. Yerdə qalan 17 əlavənin isə bir neçəsi o qədər də önəmli deyil. Bu qədər müddət ərzində ABŞ Konstitusiyasına 27 əlavə edilib, amma Azərbaycan Konstitusiyası bu qədər çox dəyişikliyə məruz qalıb. Əslində götürəndə biz Azərbaycanın müstəqillikdən bu tərəfə olan dövrünə nəzər salsaq, konstitusiya qəbul olunandan bu yana ölkəmizin keçdiyi inkişaf yolu Avropa dövlətləri və ABŞ-ın vaxtilə 100 ilə keçdiyi inkişaf yoluna bərabərdir. Azərbaycanın bu iki 10 ili həmin dövlətlərin 100 illik inkişafına bərabərdir”.***

”Unikal” xəbər verir ki, bunu Milli Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin təşkil etdiyi elmi-praktik konfransda çıxışı zamanı Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının rəisi Elşad Nəsirov deyib.

”Proporsional sistem demokratiyanın yaranmasına, siyasi hakimiyyətin xalqdan, seçicidən ayrılmasına önəm verən sistemdir. Zaman gələ bilər, müəyyən dövr yetişə bilər ki, biz proporsional sistemə yenidən qayıda bilərik. Amma bu günün tələbi məhz majoritar sistemə keçidlə bağlı idi”, - deyə Elşad Nəsirov bildirib.

***Anar Kəlbiyev***

## “Azərenerji” ASC-nin Nizamnaməsi təsdiqləndi

***“Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi” təsdiq edilib.***

”Unikal” xəbər verir ki, Baş nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Qərardan irəli gələn məsələləri həll edəcək.

“Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin strukturu

1. “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin aparatı.
2. “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin idarə, nümayəndəlik və filialları.
3. “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin törəmə cəmiyyətlərindən ibarət olacaq.

15_27 IYUl-QARA.qxd 4/24/2025 11:03 PM Page 7





## Şuşanın işğalına qədərki hadisələrlə bağlı sənədlər tədqiq olundu

***Bakı Hərbi Məhkəməsində davam etdirilən məhkəmə prosesində Şuşanın işğal olunmasına qədər baş vermiş hadisələrlə bağlı sənədlər tədqiq edilib.***

"Unikal" xəbər verir ki, dövlət ittihamçılarının tədqiq etdikləri sənədlərə əsasən, işğala qədər Şuşa şəhəri və ətraf kəndlər Ermənistan silahlı qüvvələri tərəfindən müxtəlif silahlarla, o cümlədən raketlərlə və toplarla dəfələrlə atəşə tutulub. Həmin hadisələr zamanı milliyyətcə azərbaycanlı olan şəxslər həlak olub, yaralanıb və ya girov götürülüb.

Həmçinin Ermənistan silahlı qüvvələri tərəfindən azərbaycanlıların yaşadıqları kəndlərin su kəmərləri partladılıb, təhsil, səhiyyə və digər mülki obyektlərə, vətəndaşların evlərinə ciddi zərər dəyib. Qeyd olunan faktlar üzrə həmin vaxt cinayət işləri başlanılıb.

Hadisələr sırasında Malıbəyli və Quşçular qətliamı adlandırılan hadisələr də daxildir.

Məhkəmədə tədqiq edilən digər protokol isə 1991-ci il aprelin 4-də Şuşa rayonunun Göytala kəndində uçuş zamanı vertolyotun atəşə tutulması faktı ilə bağlı olub. Həmin gün saat 12-13 radələrində içərisində Azərbaycan Respublikası Ali Sovetinin deputatları olan Daxili İşlər Nazirliyinə məxsus 27057 nömrəli vertolyot Şuşa rayonunun Göytala kəndinə uçan zaman ermənilərin yaşadıqları Eksaok kəndindən atəşə tutulması nəticəsində zədələnib, Turşsu kəndində məcburi eniş edərkən qəzaya uğrayaraq yanıb, bəzi sərnişinlər yaralanıb.

Elan və tədqiq olunan digər protokol 1992-ci il yanvarın 28-də sərnişin vertolyonun vurulması faktı ilə bağlı olub. Qeyd edilib ki, Ağdam aeroportundan havaya qalxaraq Ağdam-Şuşa reysi üzrə uçuşa başlayan Azərbaycan Respublikasına məxsus "AZAL" mülki aviasiya konserninin "AZALPANX" Zabrat aviaşirkətinə aid 24137 bort nömrəli "Mİ-8T" markalı sərnişin vertolyotunun Xankəndi şəhərinin Kərkicahan kəndi ərazisindən Ermənistan silahlı qüvvələri tərəfindən raketlə vurulub. Vertolyot Şuşa rayonunun Xəlfəli kəndindən Qaybalı kəndinə gedən torpaq yola çırpılaraq partlayıb. Hadisə zamanı 3-ü ekipaj üzvü və 39 nəfər sərnişin olmaqla, ümumilikdə 42 nəfər ölüb. Hadisə yerinə və meyitlərə baxış keçirilməsi haqqında protokollardan görünür ki, vertolyotun yanğınla müşayiət olunan partlayışı nəticəsində onun içərisində olan şəxslərin meyitləri yanmış və parçalanmış vəziyyətdə aşkarlanıb. Hadisə yerindən qəlpə hissələri götürülüb.

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.

# "Çin Azərbaycanın ən böyük ticarət tərəfdaşlarından biridir"

## Vüqar Bayramov: "İki ölkə arasında vizasız rejimə keçilməsi ölkələrin strateji və iqtisadi əlaqələrinin qarşılıqlı olaraq güclənməsinə imkan verəcək"

***Milli Məclisin deputatı Vüqar Bayramov "Unikal"a müsahibə verib. O, Azərbaycanla Çin arasında viza rejiminin ləğv olunmasının əhəmiyyətindən, imzalanan digər sənədlərin iki ölkənin iqtisadiyyatına hansı töhfələr verəcəyindən və Çin şirkətlərinin azad olunmuş ərazilərin qurulmasında necə iştirak edə biləcəyindən danışıb.***

***-Vüqar bəy, "Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında ümumvətəndaş pasportlarına malik vətəndaşların vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş" imzalanıb. Azərbaycanla Çin arasında viza rejiminin ləğv olunmasının hansı üstünlükləri olacaq?***

***- Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində aprelin 23-də Pekində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" imzalanıb. İmzalanmış sənədlərdən biri də ölkələr arasında vizasız səfərlər haqdadır. Bu o deməkdir ki, iki ölkə vətəndaşları qarşılıqlı vizasız səfərlər edə biləcəklər. Onu da qeyd edim ki, Çin vətəndaşları bu ildən ölkəmizə vizasız gələ bilirdilər. Azərbaycanla Çin arasında vizasız rejimə keçilməsi ölkələrin strateji və iqtisadi əlaqələrinin qarşılıqlı olaraq güclənməsinə imkan verəcək. 2024-cü ildə Çindən Azərbaycana gələn turistlərin sayı 1.9 dəfə artaraq 45.0 minə çatıb. Bu ilin ilk rübündə isə Çindən Azərbaycana gələnlərin sayı 1.8 dəfə artıb. Bu o deməkdir ki, ilk 3 ayda 9 minə yaxın Çin vətəndaşı Azərbaycana səfər edib.***

2024-cü ildə Çinə səfər edən turistlərin sayı 61.0 faiz artaraq 132 milyon nəfərə çatıb. Bu, Çin üçün 6.4 trilyon yuan gəlir deməkdir. Yeni anlaşma Azərbaycandan Çinə gedənlərin sayına təsir edəcək. Bir tərəfdən, Azərbaycan Hava Yollarının Bakı ilə Pekin arasında birbaşa uçuşlar həyata keçirməsi, digər tərəfdən isə vizasız rejim hər iki ölkə vətəndaşları üçün yeni imkanlar yaradacaq. Bu baxımdan, viza anlaşması yalnız turizm sahəsində deyil, bütövlükdə iqtisadiyyatın fərqli sektorlarında əməkdaşlıq üçün yeni imkanlar deməkdir.

***-Ümumilikdə, Azərbaycanla Çin arasında 21 sənəd imzalanıb. Bu sənədlər iki ölkə arasında iqtisadi əməkdaşlığın inkişafına necə təsir edəcək?***

-Azərbaycanla Çin arasında strateji və iqtisadi əməkdaşlığın daha da güclənməsi müşahidə olunur. Azərbaycan Prezidentinin Çinə səfəri və görüşlər dostluq şəraitində keçirildi. Çin Xalq Respublikasının (ÇXR) Sədri Si Cinpin Azərbaycan Prezidenti İlham Əliyevi özünün və Çin xalqının böyük dostu adlandırması həm cənab Prezidentin nüfuzuna, eyni zamanda ölkəmizə verilən xüsusi qiymətdir. İki ölkə arasında münasibətlər strateji əhəmiyyət daşıyır. Ona görə ki, ölkələr arasında strateji əməkdaşlıqla bağlı anlaşma var. Bu həm ticarət dövriyyəsində, həm də iqtisadi əlaqələrdə özünü göstərir. Son illər iki ölkə arasında ticarət dövriyyəsinin artmasını müşahidə edirik. 2024-cü ildə ölkələr arasında ticarət dövriyyəsi 21 faizə yaxın artaraq 3 milyard 744 milyon dollar olub. Çin Azərbaycanın ən böyük ticarət tərəfdaşlarından biridir. İdxalda ən böyük paya malik olan ölkədir. Bu baxımdan, ölkələr arasında həm ticari, həm də iqtisadi əlaqələrin ciddi şəkildə dərinləşməsini müşahidə edirik. Çin və Azərbaycan fərqli beynəlxalq platformalarda əməkdaşlıq edir. Bu əməkdaşlıq həm də regional sülhə dəstəkdir. Eləcə də Asiyada etimadın qurulmasına Azərbaycan həmin təşkilatlar çərçivəsində öz töhfəsini vermiş olur. Vacib istiqamətlərdən biri də nəqliyyat və logistika sahəsində əməkdaşlıqdır. Ölkələr arasında bu sahədə ciddi əməkdaşlıq müşahidə olunur. Azərbaycanla Çin arasında Orta Dəhliz çərçivəsində əməkdaşlığın güclənməsi, dərinləşməsi müşahidə edilir. Həmçinin, Çinlə Azərbaycan arasında yükdaşımaların ötən il 80 faizdən çox artması da ondan xəbər verir ki, ölkələr arasında orta dəhliz və Şərq-Qərb nəqliyyat dəhlizi vasitəsilə ciddi əməkdaşlıq qurulub. Azərbaycanın özünün nəqliyyat və logistik infrastrukturunun inkişafı, elektron xidmətlərdən istifadə etməsi də bu nəqliyyat dəhlizinin region üzərindən uğurla reallaşması anlamına gəlir. Azərbaycanın regional layihələrin, eləcə də Orta Dəhliz nəqliyyat dəhlizinin reallaşmasında xüsusi rolu var. Orta Dəhlizin region üzərindən reallaşan hissəsinin infrastrukturunun inkişaf etdirilməsi bu istiqamətdə yeni imkanlar deməkdir. Çin şirkətlərinin Azərbaycan iqtisadiyyatına marağının artmasını müşahidə edirik. Azərbaycan iş adamları da Çin bazarına daha çox məhsul göndərməkdə maraqlıdır. O baxımdan cənab Prezidentin səfəri iki ölkə arasında əməkdaşlıqda yeni mərhələnin başlanmasına imkan yaradacaq.



***-Məlum olduğu kimi, azad olunmuş ərazilərin qurulmasında müxtəlif ölkələrin şirkətləri ilə əməkdaşlıq edilir. Çin şirkətləri Qarabağın qurulmasında hansı sahələrdə iştirak edə bilər?***

-Çin şirkətlərinin Qarabağ və Şərqi Zəngəzurda yaşıl enerji istehsalında, eyni zamanda həmin ərazilərimizin bərpasında iştirakı müzakirə edilən məsələlərdəndir. Bu istiqamətdə danışıqlar gedir. Çin şirkətləri Ələt Azad İqtisadi Zonasında iştirakda maraqlıdırlar. Digər tərəfdən isə aparılan müzakirələr də göstərir ki, Qarabağ və Şərqi Zəngəzurun bərpasında, xüsusilə, alternativ mənbələrdən enerji istehsalında Çin şirkətlərinin daha fəal şəkildə iştirakı müşahidə olunacaq.

***Anar Kəlbiyev***

# Hacıbala Abutalıbov yenidən ittiham hədəfində...

## Bakının sabiq icra başçısı niyə birdən-birə yada düşdü?

***Məlum olduğu kimi, Bakıda aprelin 15-dən 16-na keçən gecədən başlayan intensiv yağışlar paytaxtın müxtəlif yerlərində növbəti dəfə ciddi fəsadlara səbəb olub.***

Yollar, tunellər və dayanacaqlar su altında qalıb, nəqliyyatın hərəkətində ciddi çətinliklər yaranıb. Taksi və avtobusların fəaliyyəti iflic olub, vətəndaşlar isə evlərinə qayıtmaq üçün saatlarla suyun içində qalmaq məcburiyyətində qalıblar.

Bundan sonra mediada və sosial şəbəkələrdə mövzu ətrafında növbəti dəfə geniş müzakirələr başlayıb. Həmin müzakirələr zamanı Bakının sabiq meri Hacıbala Abutalıbovun adı bir daha gündəmə gəlib. Məsələn, nəqliyyat məsələləri üzrə ekspert Elməddin liyini indiyə qədər anlaya bilmədim. Qeyd edim ki, şəhərdəki yaşıllıqlar da elə ən çox Hacıbala Abutalıbovun dövründə məhv edildi" deyən ekspertin sözlərinə görə, Bakının sabiq icra başçısının dövründə bir çox yollar təmir olundu, ancaq kaş ki, heç təmir olunmayaydı: "Bu gün də onun bəlasını çəkirik. Demək olar ki, onun dövründə təmir olunan bütün yollar bərbad vəziyyətdədir və çökmək üzrədir. Niyə? Çünki adam bütün yağış barmaqlıqlarını söküb atırdı. Heç yanda yağış barmaqlıqları yoxdur. Bu adam özündən proqnoz verib ki, küçə üzü aşağıdırsa, su da axıb gedər. Bu, qeyri-peşəkar yanaşmadır".

Bir müddət öncə "Azpolitika" isə yazıb ki, paytaxt Bakıdakı mövcud xaotik, səliqəsiz, əndrasair. Hər şey də aidiyyatı qurumların rüşvət qarşılığındakı xeyir-duası və razılığı ilə, yəni, "kəndxudanı gör, kəndi çap" prinsipi əsasında baş verirdi: "Guya şəhəri Abutalıbovun gözəlləşdirdiyinə dair iddialara gəlincə, neft pullarının sel kimi axdığı illərdə Bakının mərkəzini - "görünən yerini" Dubaya, nisbətən gözdən uzaq hissələrini isə "qaraçı məhəlləsinə" döndərmək və bunun üçün yüz milyonlar, milyardlar silmək elə də böyük ağıl, istedad, zövq və fədakarlıq tələb etmirdi. Amma bütün bunları gülərüz, məsum, günahsız sifətlə etmək, milləti və bu boyda - milyonluq paytaxt şəhəri 17 il(!) "barmağına dolamaq" isə xüsusi istedad, aktyorluq bacarığı tələb edirdi ki, bunlar da Abutalıbovda olub və sözsüz ki, indi də var...



Muradlı deyib ki, vaxtilə yol infrastrukturu düzgün qurulmayıb. O bildirib ki, yollardakı yağış barmaqlıqlarını təmir zamanı ləğv ediblər: "Bəlkə də, layihədə dəmir barmaqlıqlarının təmir edilməsi nəzərdə tutulub, amma konkret olaraq Hacıbala Abutalıbovun dövründə onlar yığışdırıldı. Sabiq Bakı meri, deyəsən, dəmir düşməni idi..."

"Hacıbala Abutalıbovun dövründə şəxsən Mikayıl Müşfiq küçəsi təmir olunanda mən bunun şahidi oldum ki, orada mövcud olan yağış barmaqlıqlarını ləğv etdilər. Bizə aydın olmadı ki, Hacıbala müəllimdə şəhər təsərrüfatındanmı anlayışı yox idi, yoxsa başqa bir problemi vardı. Onun şəhərimizə qarşı olan düşmənçibadi, bir sözlə, müasir şəhərsalma fəlsəfəsilə, mədəniyyətilə heç bir əlaqəsi olmayan tikintilərin, sıxlığın, tıxacların və s. bünövrəsi əsas etibarilə Abutalıbovun merliyi dövründə qoyulub. Xüsusilə də neft bumu zamanında tikinti maqnatına çevrilən iri məmurların acgözlüyü sayəsində yaşanan tikinti bumu nizamsız, pinti, yırtıcı hal aldı. Digər yandan özünə bir küncdə yaşamağa yer axtaran "qara camaat" da bu prosesdən geri qalmadı. Kimin əlinə pul düşdüsə, ya eyvanını qabağa çəkdi, ya sonuncu mərtəbədə yaşayırsa, binanın üstünə bir mərtəbə də artırdı, ya yolu kəsib ev, obyekt tikdi, ya da ən azından həsarını yolun ortasına qədər çıxarıb, ərazisini 1-2 metr də artırdı və

Son zamanlar sabiq meri "gördüm" deyən yoxdur. Səhv etmiriksə, sonuncu dəfə ictimaiyyət onun "mələk simasını" hakim partiyanın qurultayında görüb.

Deyilənə görə, Abutalıbov hazırda Bakıdakı çoxsaylı evlərinin və villalarının heç birində yaşamır. Onun Qaxda, İlisuda, təbiət qoynundakı malikanəsində məskunlaşdığı, necə deyərlər, "orqanik həyat yaşadığı" barədə xəbərlər varg"

Bəli, vəzifədə olduğu müddətdə Azərbaycanın ən oliqarxlaşmış məmurlarından birinə çevrilən, inanılmaz varidata yiyələnən Hacıbala müəllim indi gözdən uzaqda vaxtilə yığdığı pulları sakitcə həzm-rabedən keçirir, yalnız paytaxta nə vaxt yağış yağsa, küçələri sel-su bassa, yada düşür. Əlbəttə, heç də xoş sözlərlə, minnətdarlıq duyğuları ilə deyil...

Və belə görünür ki, Bakını gözəlləşdirmək adı altında onu yöndəmsiz binalar və qeyri-effektiv infrastruktur şəhərə çevirmək üçün əlindən gələni edən sabiq meri qarlı, yağışlı günlərdə hələ çox xatırlamalı olacağıq. Hər nə qədər bu, Abutalıbovun artıq vecinə olmasa da! Hətta o, bəlkə də, taladığı büdcə pulları ilə hazırda kef edərkən haqqındakı bu cür xatırlamalara indi sadəcə qıraqdan baxıb qımışır, arada qəhqəhə belə çəkir.

Bəzən məmur öz yarıtmaz və korrupsioner fəaliyyətinə görə cəzasız qalanda ondan hər şey gözləmək olar, o cümlədən, ictimai qınağa rişxənd eləməsini də!...

***Toğrul Əliyev***



# "Konstitusiya islahatları davam edən prosesdir" - MM sədrinin müavini

***"Konstitusiya islahatları davam edən prosesdir. Konstitusiya ilə təsbit olunan institutların inkişafı ilə bağlı dəyişiklik və əlavələr edilməlidir".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin "Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda keçirdiyi elmi-praktik konfransda çıxışı zamanı parlament sədrinin müavini Ziyafət Əsgərov deyib.

O bildirib ki, Azərbaycan konstitusiyası dünyada sayılıb-seçilən normativ hüquqi aktlardan biridir: "Bu mənada kostitusiyamızla fəxr edə bilərik. Amma həyat yerində dayanmır, ictimai münasibətlərin dinamikası sürətlə irəliləyir. Yeni problemlərin yaranması, yeni institutların meydana gəlməsi, onların fəaliyyətinin tənzimlənməsi meydana çıxır. Ona görə də müxtəlif illərdə kostitusiyamıza insanların hüquq və azadlıqları ilə bağlı əlavələr edildi. Konstitusiya islahatları əslində davam edən prosesdir".

***Anar Kəlbiyev***

# Bakı Dövlət Universitetində keçid balları - Siyahı

***Azərbaycanda ötən il qəbul imtahanından sonra keçirilən ixtisas seçimində formalaşan keçid balları məlum olub.***

"Unikal" xəbər verir ki, modern.az ötən il Bakı Dövlət Universitetində (BDU) formalaşan keçid ballarını araşdırıb.

Univeristetdə I ixtisas qrupu üzrə geologiya, mexanika, geologiya və geofizika mühəndisliyi, geomatika və geodeziya mühəndisliyi, mədən mühəndisliyi, II qrupda hidrometeorologiya, III qrupda filologiya (ingilis dili və ədəbiyyatı), filologiya (fransız dili və ədəbiyyatı), filologiya (fars dili və ədəbiyyatı), filologiya (ərəb dili və ədəbiyyatı), tərcümə (ərəb dili və fars dili üzrə) ixtisasları üzrə keçid balı 200 bal olub. Universitetin Qazax filialında isə bir çox ixtisasın keçid balı 200 və daha azdır.

I qrupda dövlət sifarişli yerlərdə isə ən aşağı keçid balları geologiya (223.3 bal) və geomatika və geodeziya mühəndisliyi (216.5 bal) ixtisaslarında olub. Ən yuxarı ballar informasiya təhlükəsizliyi (552.5 bal) və ingilis dilində riyaziyyat (513.9) ixtisaslarındadır.

II qrupda iqtisadiyyat ixtisasında keçid balı 393.7 bal olub (dövlət sifarişli 407.4 bal). Biznesin idarə edilməsində 307.4 bal (dövlət sifarişli 506.6 bal), maliyyə 353.5 bal (459 bal) ingilis dilində maliyyə 459.9 bal, turizm işinin təşkili 331.6 bal, menecment 270.8 (dövlət sifarişli 390.9) bal olub.

III qrupda isə müəllimlik ixtisaslarında keçid balları 200-660 bal arasında dəyişib. Tarix müəllimliyi 497.2, Azərbaycan dili və ədəbiyyatı müəllimliyi 539.1, beynəlxalq münasibətlər 376.5 (dövlət sifarişli 468.6), filologiya (Azərbaycan dili və ədəbiyyatı) 413 (dövlət sifarişli 487.1), hüquqşünaslıq 612.8 (dövlət sifarişli 613.9), ingilis dilində hüquqşünaslı 660.3, kitabxanaçılıq və informasiya fəaliyyəti 281.8 (dövlət sifarişli 382.2), politologiya 443.3 (d.s. 516.8), regionşünaslıq ixtisasları 231-382 bal arası, tarix 439 (d.s.500.6), sosial iş 481.7 bal olub.

Universitetin jurnalistika fakültəsində keçid balı 371.4 (dövlət sifarişli 386.9) olub. Qazax filialında isə keçid balları daha aşağıdır.

IV ixtisas qrupunda biologiya müəllimliyi 389.3 bal, kimya müəllimliyi 415.8 bal, psixologiya 497.9 bal olub.



# Hökumə Əliyevanı təhqir edən qadın həbs edildi

***Milli Qəhrəman Hökumə Əliyevanı təhqir edən qadın həbs edilib.***

"Unikal" Modern.az-a istinadən xəbər verir ki, ötən həftə A.Həsənova adlı qadın (ad şərtidir - red.) sosial şəbəkə hesabında Aktau yaxınlığında Azərbaycana məxsus təyyarənin qəzaya uğraması nəticəsində həlak olan Hökumə Əliyevanın ünvanına təhqiramiz sözlər yazıb.

Qadının sözləri ictimaiyyət arasında kəskin narazılığa səbəb olub. Hökumə Əliyevanın həyat yoldaşı Etibar Əliyev məsələ ilə əlaqədar hüquq-mühafizə orqanlarına müraciət edib. O bildirib ki, qadın həyat yoldaşı barəsində qeyri-etik, təhqiramiz ifadələr işlədib.

A.Həsənova polis tərəfindən aşkarlanıb və inzibati qaydada tutularaq polis şöbəsinə gətirilib. Xanım etdiyi əməli səmimi etiraf edib.

O, İnzibati Xətalar Məcəlləsinin 388-1.1.1-ci maddəsi ilə nəzərdə tutulan inzibati xətanı törətməkdə təqsirli bilinib və 10 gün həbs qərarı verilib.

Xatırladaq ki, AZAL-a məxsus Bakı-Qroznı aviareysini həyata keçirən sərnişin təyyarəsi dekabrın 25-də Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğrayıb. Təyyarənin göyərtəsindəki 67 nəfərdən 38-i həlak olub, 29-u sağ qalıb. Təyyarə Rusiyanın Qroznı üzərindəki hava məkanında baş verən fiziki və texniki xarici müdaxilə nəticəsində qəzaya uğrayıb.

Prezident İlham Əliyevin 29 dekabr 2024-cü il tarixli Sərəncamı ilə Hökumə Əliyeva qəza zamanı xidməti vəzifələrinin yerinə yetirilməsində, sərnişinlərin həyatının xilas edilməsində yüksək peşəkarlıq, şücaət və fədakarlıq göstərdiyinə görə Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülüb.

# "Kimsəyə dəfələrlə seçilmək imkanı yaratmırdıq" - Komitə sədri

***"2002-ci il referendumunda proporsional seçki sistemi ilə bağlı dəyişikliklərin təşəbbüskarları olan iqtidar tənqidlərə məruz qalırdı. Səbəb o idi ki, sanki bu, siyasi sistemin zəifləməsinə gətirib çıxaracaq. Hesab edirəm ki, mövcud dəyişikliklərlə sonralar bir sıra postsovet ölkələrində gördüyümüz proporsional korrupsion sistemə son qoyduq. Siyasi partiyalar inkişafından da qalmadı. Hətta sonrakı mərhələlərdə daha da inkişaf etdilər".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin təşkil etdiyi elmi-praktik konfransda çıxışı zamanı komitə sədri Əli Hüseynli deyib.

"O dövrdəki həmin apponentlərin arqumentləri özünü doğrultmadı. Əminliklə deyə bilərəm ki, biz çox düzgün addım atmışıq. Bu gün majoritar seçki sistemi, yəni, təmsilçilik seçici ilə deputat arasında həm əlaqə, həm də məsuliyyət yaradır. Bunun təzahürlərindən biri qəbullardır. Lakin zamanında hansı siyasi mənsubiyyətindən asılı olmayaraq onların vətəndaş, yaxud seçici qarşısında heç bir öhdəliyi yox idi. 2009-cu ildəki dəyişikliklə bir şəxsin iki dəfədən artıq dəfə seçilməsinə məhdudiyyət qoyulması məsələsini də fərdlə əlaqələndirirdilər. Arqumentimiz çox sadə idi, yəni, biz kimsəyə bir neçə dəfə seçilmək üçün qanunvericilik imkanı yaratmırdıq. Biz seçilən üçün yox, seçən üçün imkan yaradırdıq. Bütün hallarda nəticə onu göstərirdi ki, biz düzgün yoldayıq", - deyə komitə sədri bildirib.

***Anar Kəlbiyev***

# Oqtay Əsədovun klinikasında "sular durulmur"

## Sabiq spikerə aid olduğu deyilən özəl tibb müəssisəsi ilə bağlı qalmaqallı xəbərlər səngimir

***Bu günlərdə Bakıda burun əməliyyatından sonra vəfat edən Nəzrin Mansurlunun ölümü ilə bağlı cinayət məsuliyyətinə cəlb edilən cərrah Sənan Mehdiyevin həbs müddəti uzadıldı.***

Nəsimi Rayon Məhkəməsində prokurorun təqdimatı əsasında belə qərar qəbul olunub.

Məhkəmə əlavə sübutların toplanmasını nəzərə alaraq təqdimatı təmin edib.

Qərara əsasən Sənan Mehdiyevin həbsdə saxlanılma müddəti daha 2 ay uzadılıb.

Qeyd edək ki, Bakı şəhər sakini, 1995-ci il təvəllüdlü Nəzrin Aydın qızı Mansurlunun yanvarın 12-də ölməsi faktı ilə bağlı Nəsimi Prokurorluğunda Cinayət Məcəlləsinin 314.2-ci (səhlənkarlıq, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanaraq ibtidai istintaq aparılır.

İstintaqla Nəzrin Mansurlunun yanvarın 3-də paytaxtın Nəsimi rayonu ərazisində yerləşən "Mərcan Medicare Clinic" adlı klinikada plastik cərrah işləyən Sənan Mehdiyev tərəfindən icra olunmuş rinoplastika əməliyyatından sonra vəziyyətinin kəskin ağırlaşması və yerləşdirildiyi klinikada ölməsinə əsaslı şübhələr müəyyən edilib.

Bir müddət əvvəl yerli KİV-də klinikanın sabiq deputat və Milli Məclisin keçmiş spikeri Oqtay Əsədovun qızı Nərmin Əsədovaya məxsus olduğu barədə xəbərlər yayılıb. Lakin adları çəkilənlər bu xəbəri nə təsdiq, nə də təkzib ediblər.

Maraqlı burasıdır ki, O.Əsədov spikerlikdən və deputatlıqdan uzaqlaşdıqdan sonra "Mərcan Medicare Clinic"in adı ətrafında qalmaqallı xəbərlər intensivləşib.

Bu sırada adı çəkilən tibb müəssisəsində başqa bir ölüm faktı ilə bağlı yaranan hay-küy diqqət çəkir. Belə ki, Nəzrin Mansurlunun ölümündən bir qədər əvvəl - 2024-cü ilin dekabrında bloqer Nərmin Bəylər qızı İsgəndərovanın da "Mərcan Medicare Clinic"də plastik əməliyyatdan sonra vəfat etdiyi məlum olmuşdu. Əməliyyatı Nurlan Həsənlinin həyata keçirdiyi bildirilirdi və bunun üçün klinikaya 5 min manat pul ödənildiyi açıqlanmışdı. "Əməliyyatdan sonra Nərminin halı pisləşdiyi üçün həkimlə əlaqə saxlayıb. O isə boyun olmayıb və başqa klinikaya yollayıb. Orada da günü 180 manat istəyiblər. Pulu olmadığı üçün evdə müalicə edib. Dərman almağa gedəndə yolda rəhmətə gedib" - Nərmin İskəndərovanın anası açıqlamasında demişdi.

"Mərcan Medicare Clinic"in baş həkimi Araz Ağayev isə bildirmişdi ki, əməliyyatı cərrah Oruc Məmmədov icra edib, Nurlan Həsənli onun köməkçisidir.

Üstəlik, Nurlan Həsənlinin Rusiyada tibb təhsili aldığını, lakin Səhiyyə Nazirliyində sertifikasiya komissiyasından keçmədiyindən klinikada həkim köməkçisi kimi fəaliyyət göstərdiyi məlum olmuşdu. "Baş vermiş ölüm faktı ilə bağlı araşdırmanı hüquq-mühafizə orqanları aparırlar. O ki, qaldı Səhiyyə Nazirliyində sertifikasiya komissiyasından keçməyən şəxsin özəl klinikada həkim köməkçisi kimi fəaliyyət göstərməsinə, bu məsələ ilə əlaqədar "Mərcan Medicare Clinic"də plandankənar yoxlama aparılıb. Nəticədə tibbi müəssisə İnzibati Xətalar Məcəlləsinin 215.4-cü maddəsi ilə cərimə nəzərdə tutulmaqla inzibati xəta haqqında protokollar tərtib edilərək, aidiyyəti üzrə Səhiyyə Nazirliyinə növbəti icraata göndərilib" - həmin vaxt yerli KİV yazırdı.

Əldə etdiyimiz məlumata görə, sertifikasiya məsələsinə görə klinika cərimələnib.

Mart ayında isə "Mərcan Medicare Clinic"in adı ətrafında növbəti qalmaqal baş verdi. Belə ki, klinikada icra olunan əməliyyatda tibb sanitariya və təhlükəsizlik qaydaları pozulduğunu əks etdirən görüntülər yayıldı. Bu barədə xalq.az-ın xəbərində deyilirdi ki, yayımlanan görüntüdə klinikanın həkimi Elman Əzimovun qeyri steril şəraitdə çalışdığı görünür.

"Videonun kim tərəfindən çəkildiyi bilinmir. Məlumat sosial şəbəkələrdə müzakirələrə yol açıb.

"Mərcan Medicare Clinic" klinikasında əməliyyatların qeyri peşəkar, tibbi qaydalara əməl edilmədən aparıldığı yazılır. Elman Əzimov ümümi cərrah olsa da, estetik əməliyyat, lor-cərrah kimi fəaliyyət göstərdiyi deyilir.

Klinika məsələ ilə bağlı mövqe bildirməyib" - xəbərdə həmçinin vurğulanırdı.

"Mərcan Medicare Clinic"də 26 fərqli ixtisaslı həkimin çalışdığı, gündəlik 80-120 pasiyentə tibbi xidmət göstərildiyi bildirilir. Klinikanın ümumi heyəti 140 nəfərə yaxındır, bunlardan həkimlər - 38 nəfər, professor - 1 nəfər, tibb elmləri doktoru - 2 nəfər, tibb elmləri namizədi isə 5 nəfərdir.



Xatırladaq ki, adı çəkilən klinikanın sahibi olduğu deyilən və bu ilin yanvarında 70 yaşını qeyd edən Oqtay Əsədov Milli Məclisin IV, V və VI çağırış sədri (2005-2020) olub.

Onun iri biznes sahibi olduğu, bu biznesdə isə tibbi xidmətlərin xüsusi yer tutduğu deyilir.

Belə ki, sabiq spikerin yuxarıda adı çəkilən klinika ilə yanaşı, uzun illərdir Səhiyyə Nazirliyinin tibb avadanlıqların və ləvazimatlarının alınmasında "favorit" şirkəti sayılan, həmin müddətdə sözügedən nazirlikdən ümumilikdə yüz milyonlarla manatlıq tender qazanan "Arash Medical Company"nin də qeyri-rəsmi sahiblərindən biri olduğuna dair iddialar var. Bu iddialar da O.Əsədov tərəfindən indiyədək nə təsdiq, nə də təkzib olunub.

***Sənan Mirzə***

# İcra başçılarının sevimli şirkəti "batır"

## Borc bataqlığındakı "tenderlər kralı" niyə etibarsız elan edildi?



***Azərbaycanda "tenderlər kralı" sayılan daha bir MMC çətin vəziyyətdədir. Belə ki, "Vedi Construtction" şirkətinin külli miqdarda vergi borcu yaranıb.***

Valyuta.az-ın xəbərinə görə, şirkətin hazırda 785 180,67 manat vergi borcu var. "Vedi Construction" MMC dövlət satınalmalarında fəal iştirak edən şirkətlərdən olub.

Məsələn, İmişli Rayon İcra Hakimiyyəti 2022-ci ildə abadlıq və təmir işlərinə 2 milyon manata yaxın vəsait xərcləyib. Qurumun bu məqsədlə imzaladığı 5 satınalma müqaviləsindən biri məhz "Vedi Construction" MMC ilə olub. Beyləqan və Biləsuvar rayonu istiqamətlərindən giriş lövhələrinin, İmişli şəhəri T.İsmayılov və C.Dədəkişiyev küçələrində səkilərin əsaslı təmiri üzrə bağlanan həmin müqavilənin dəyəri isə 279 678 AZN təşkil edib.

Və ya, Gəncə Şəhər Mənzil-Kommunal Təsərrüfatı İstehsalat Birliyi ötən il "Gəncə şəhərinin küçə və prospektlərində hasarların əsaslı təmiri və abadlıq işlərinin satınalınması" ilə bağlı elan etdiyi açıq tenderin nəticələrini elan edib. Məlum olub ki, maliyyə dəyəri 897 min 240 manat olan tenderin qalibi də "Vedi Construction" MMC-dir. "Tərəflər arasında bağlanacaq satınalma müqaviləsinin şərtlərinə əsasən, şirkət Gəncə şəhərinin küçə və prospektlərində hasarların əsaslı təmiri və abadlıq işləri ilə məşğul olacaq. Şirkət şəhərin Nizami prospektində hasarların əsaslı təmiri işləri ilə, yeni kərpic divarların söküntüsünü, mürəkkəb xarici kərpic divarın və kərpicdən konstruksiyaların hörgüsünü, divar hörgüsünün və digər konstruksiyaların armaturlanmasını, dərinliyi 2 m-ə qədər olan yamaclı xəndəklərdə qruntun bərkitmələr olmadan əl ilə qazılmasını və bünövrə altı əsasların qurulmasını həyata keçirəcək" deyə həmin vaxt yayılan xəbərlərdə deyilirdi.

Bundan başqa, bir il öncə Gəncə Dövlət Universitetində 2 ədəd istirahət köşkünün, avtonəqliyyat vasitələri üçün talvarın və sanitar qovşağının tikinti işlərinin satınalınması üzrə tenderin qalibi də adı çəkilən şirkət olub. Həmin vaxt bu MMC ilə 90 900 manatlıq müqavilə imzalanıb.

Onu da deyək ki, Azərbaycanın dövlət satınalmaları platformasında etibarsız təchizatçıların siyahısı genişlənməkdə davam edir.

Belə ki, 2024-cü ilin mart ayından 2025-ci ilin fevral ayınadək 16 təşkilat və fiziki şəxs etibarsız təchizatçı elan edilib. Siyahıya daxil olanların arasında həm iri şirkətlər, həm də fərdi sahibkarlar yer alır.

Ən yeni qərarlardan biri 2025-ci il 28 fevral tarixində "Maybo" MMC ilə bağlı verilib. Şirkət, satınalma müqaviləsinin icrasından boyun qaçırdığına görə etibarsız elan edilib. Digər şirkətlər isə əsasən nəzarət orqanlarının qərarlarına və ya müraciətlər əsasında aparılan araşdırmalara əsasən bu siyahıya salınıb.

Etibarsız təchizatçı statusu həmin təşkilatların müəyyən müddət ərzində yeni tender və satınalmalarda iştirak imkanlarını məhdudlaşdırır, bu isə onların fəaliyyətinə birbaşa təsir göstərir.

Maraqlı burasıdır ki, etibarsız təchizatçı elan edilən şirkətlərin bir çoxu eynilə "Vedi Construction" kimi illər uzunu satınalma müsabiqələrində mütəmadi iştirak edən və bir növ "tenderlər kralı" kimi ad çıxaran MMC-lərdir. Onların əksəriyyəti belə satınalmalardan milyonlarla manat qazanıblar və nə hikmətdirsə hazırda külli miqdarda vergi borcu ilə üz-üzədirlər, bir növ iflasın bir addımlığındadırlar.

Müəyyən məmurlarla bağlılığı şübhə doğurmayan, böyük ehtimalla, elə həmin məmurların himayəsi altında iri tenderlərin qalibinə çevrilən sözügedən şirkətlərin qəfildən "batmağa" başlaması təəccüblə qarşılanmaya bilməz.

Yeri gəlmişkən, bir müddət öncə KİV-də ilginc bir məlumat yayılmışdı. Həmin məlumatda deyilirdi ki, Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestrinin 1 saylı Bakı Ərazi İdarəsi kompüter və kompüter avadanlıqlarının satın alınması ilə bağlı tenderə yekun vurub. Qaynarinfo-nun məlumatında deyilirdi ki, tenderin qalibi "Unisell" şirkəti seçilib. Qurum şirkətdən 247 985,26 manatlıq kompüter və kompüter avadanlığı almağı planlaşdırır. ""Unisell" şirkəti 2019-cu ildən fəaliyyət göstərir. Nizamnamə kapitalı 10 manat olan şirkətin hüquqi ünvanı Bakı şəhəri Xətai rayonu, Ağ Şəhər, ev 1, mənzil 3-də yerləşir. MMC-nin qanuni təmsilçisi Qasımov Elnur Ağamalı oğludur. Elnur Qasımov haqqında açıq mənbələrdə heç bir məlumat yoxdur" deyə xəbərdə bildirilir və əlavə edilirdi ki, şirkət İT avadanlıqları, elektronika mallarının satışı ilə məşğuldur.

Lakin şirkətin sözügedən tenderdə qalib elan olunmasını ilginc edən heç də yuxarıda yazılanlar deyildi. Məsələ burasındadır ki, "Unisell"in adı etibarsız təchizatçılar siyahısına salınıb. Şirkət 16 yanvar 2025-ci ildən 16 yanvar 2026-cı ilədək dövlət satınalmalarında iştirak edə bilməz. Bu qadağadan sonra şirkətin tenderdə qalib elan edilməsi maraqlıdır.

Daha bir ilginc nüans: birdənbirə etibarsız təchizatçı elan edilən "Unisell" şirkəti ötən il nə az, nə çox, düz 37 tenderin qalibi seçilib!

Fikrimizcə, əlavə şərhə ehtiyac yoxdur. Sadəcə onu deyək ki, yazıda diqqətinizə çatdırdığımız faktlar Azərbaycanda tender sahəsində ədalətlilik, obyektivlik və şəffaflıq prinsiplərinin qorunması istiqamətində ciddi problemlərin qaldığını, məmurların dövlət satınalmalarındakı şəxsi maraqlarının hələ də müəyyən məqamlarda ön planda dayandığını bir daha təsdiqləyir...

***Sənan Mirzə***

# Mədət Quliyev istefa verdi



***Mədət Quliyev Azərbaycan Velosiped Federasiyasının prezidenti postundan istefa verib.***

"Unikal" Apa-ya istinadən xəbər verir ki, Azərbaycanın Milli Qəhrəmanı, general-polkovnik Mədət Quliyevin Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin müavini vəzifəsindəki işlərinin spesifikliyi ilə əlaqədar Azərbaycan Velosiped Federasiyasının prezidenti postundan istefa vermək qərarına gəldiyi bildirilir.

Qeyd edək ki, Mədət Quliyev 2021-ci ilin noyabr ayından etibarən Azərbaycan Velosiped Federasiyasının prezidenti idi.

Qurumun baş katibi Elnarə Musayeva bildirib ki, M. Quliyev Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin müavini vəzifəsindəki işləri ilə əlaqədar bu qərarı verib.

O qeyd edib ki, yaxın günlərdə federasiya prezidentliyi üçün yeni seçkilər keçiriləcək.

# Nazir "İmmunlaşdırma həftəsi" ilə bağlı əmr imzaladı



***Azərbaycanda aprelin 27-dən mayın 3-dək "İmmunlaşdırma həftəsi" keçiriləcək.***

"Unikal" xəbər verir ki, bununla bağlı səhiyyə naziri Teymur Musayev əmr imzalayıb.

Əmrin imzalanmasında məqsəd Ümumdünya Səhiyyə Təşkilatının təşəbbüsü ilə 2006-cı ildən etibarən Avropa regionunda keçirilən "İmmunlaşdırma həftəsi"nin Azərbaycanda da yüksək səviyyədə təşkilidir.

Sənədə əsasən, Azərbaycanın bütün şəhər və rayonlarında təşkilati-hüquqi formasından asılı olmayaraq, uşaq əhalisinə ambulator-poliklinik xidmət göstərən bütün tibb idarə və müəssisələrin rəhbərlərinə "İmmunlaşdırma həftəsi"nin keçirilməsi tapşırılıb.

Respublikanın şəhər və rayonlarında hər hansı səbəbə görə vaksinasiyadan kənarda qalan uşaqların "İmmunlaşdırma həftəsi" ərzində peyvəndlərə cəlb edilməsi sənəddə öz əksini tapıb. Eyni zamanda, uşaqların vaksinasiyasını həyata keçirən tibb müəssisələrinə immunlaşdırma tədbirlərinin təşkilində metodiki köməkliyin göstərilməsi, əhalinin bu barədə maarifləndirilməsi kimi məsələlərin təşkili də nəzərdə tutulub.

# Bakıda Kosmik Texnologiyalar Konfransı keçirilir

***Bakıda Kosmik Texnologiyalar Konfransı - "Space Technology Conference" (STC2025) keçirilir.***

"Unikal" xəbər verir ki, bu mötəbər tədbir Azərbaycan Respublikasının Kosmik Agentliyi - "Azərkosmos"un təşkilatçılığı ilə keçirilir.

Konfransda "Dayanıqlı regional inkişaf üçün Yerin məsafədən müşahidəsi", "Mərkəzi Avrasiyada peyk rabitəsinin rolu", "Kosmik sənayedə innovasiya və investisiyalar", "Kiçikölçülü peyklər", "Dayanıqlı inkişaf üçün beynəlxalq kosmik fəaliyyətlərin koordinasiyası", "Regional çağırışlar üçün peyk texnologiyalarının rolu" kimi aktual mövzulara toxunulacaq.

İkigünlük tədbir 35 ölkədən 112 təşkilatı təmsil edən 400-dən çox iştirakçını bir araya gətirib. Konfransa Yaxın Şərq, Avropa, Asiya, Şimali və Cənubi Amerika, eləcə də Afrikadan nümayəndələr qatılıb.

Xatırladaq ki, ötən gün Bakıda Türk Dövlətləri Təşkilatının üzvləri - Türkiyə, Qırğızıstan, Özbəkistan, Qazaxıstan və müşahidəçi üzvləri - Macarıstan və Türkmənistanın kosmik agentlik rəhbərlərinin 4-cü toplantısı keçirilib.

15_27 IYUI-QARA.qxd 4/24/2025 11:04 PM Page 11





# Azərbaycanda kimlər daha tez pensiyaya çıxacaq?

***Milli Məclisin yaz sessiyasında "Əmək pensiyaları" haqqında qanuna təklif edilən dəyişikliklə bağlı müzakirələr ictimaiyyətdə müxtəlif fikirlərin yaranmasına səbəb olub.***

"Əmək pensiyaları haqqında" Qanunun 6.2-ci maddəsində uşaqlara görə güzəştli şərtlərlə yaşa görə əmək pensiyası olan şəxslərin erkən pensiyası üçün 5 il ərzində ödənilən məbləği (8-ci maddə), bundan başqa, liliputların və fizioloji mütənasibliyi pozulmuş cırtdanboy şəxslərin erkən pensiyası üçün 20 il ərzində ödənilən məbləği (9.2-ci maddə), həmçinin orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsə, habelə ahıllara (yaşı 70-ə çatmış şəxslərə) qulluq dövrünün sığorta stajına daxil edilməsi ilə əlaqədar güzəştlərin qazanılmış pensiya kapitalına əsasən formalaşan məbləği üzrə əmək pensiyası ödənişinin maliyyə mənbəyi kimi dövlət büdcəsi müəyyən edilir.

Qanunun tətbiqi 2025-ci il yanvarın 1-dən nəzərdə tutulur.

Layihə mətbuatda geniş müzakirələrə səbəb olub və bəzi vətəndaşlar tərəfindən pensiya yaşının azaldılması kimi başa düşülüb.

Qanunla bağlı bu fikirlərin yaranmasının səbəbi maraq doğurur. Eləcə də yaxın gələcəkdə pensiya yaşının azaldılma ehtimalının olub-olmadığı diqqətçəkən məqamlardandır.

"Unikal" xəbər verir ki, modern.az-a açıqlamasında Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü Vüqar Bayramov bildirib ki, "Əmək pensiyaları" haqqında qanuna təklif edilən dəyişiklik məhz 5 il daha tez pensiyaya çıxmaq hüququ olan vətəndaşlarımızın pensiyalarının dövlət büdcəsi hesabına ödənilməsini nəzərdə tutur: "Mövcud qanunvericiliyə əsasən, 5 və daha çox uşağı olan analar və bir sıra hallarda atalar 5 il daha tez pensiyaya çıxırlar. Onların pensiyaları güzəşt müddətində dövlət büdcəsi hesabına ödəniləcək. Pensiya yaşı ilə bağlı mütəmadi təkliflər təqdim olunub, müzakirələr gedib. Bizim təklifimiz pensiya yaşının müəyyənləşdirilməsində kəmiyyət meyarları ilə yanaşı, həm də keyfiyyət meyarlarının istifadə edilməsi ilə bağlıdır. Yəni xüsusən də biz çoxuşaqlı ailə anlayışına baxılması bunun 5-dən 3-ə endirilməsini təklif edirik. Bu da nəticə etibarilə 3 və daha artıq uşağı olan anaların təklif qəbul ediləcəyi halda daha tez pensiyaya çıxmasını təmin edə bilər".

Deputat, həmçinin tək anaların da daha tez pensiyaya çıxmasını təklif edildiyini bildirib: "Ona görə də bir sıra ölkələrdə olduğu kimi pensiya yaşına differensial yanaşma nəticə etibarilə bəzi, xüsusilə də sosial yardıma daha çox ehtiyacı olan vətəndaşlarımızın daha tez pensiyaya çıxmasına səbəb ola bilər".

V.Bayramov vurğulayıb ki, maliyyə qiymətləndirilməsi həyata keçirildikdən sonra müvafiq qərarların verilməsi mümkündür: "Bu istiqamətdə təbii ki, mütəmadi təkliflər təqdim olunur, müzakirələr gedir. Ona görə də sözsüz, maliyyə qiymətləndirilməsinin aparılması, fiskal gəlirlərimizə uyğun olaraq qərarların qəbul olunması önəmlidir. Amma komitə iclasında müzakirə zamanı çoxuşaqlı ailə anlayışına baxılması, uşaqların sayı nəzərə alınmaqla daha tez pensiya verilməsi ilə əlaqədar təkliflər təqdim olundu. Amma sözsüz təkliflərin dəyərləndirilməsi, xüsusən də maliyyə qiymətləndirilməsi həyata keçirildikdən sonra müvafiq qərarların verilməsi mümkündür".

**ELAN**

**FHN, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti tərəfindən Qəhramanbəyli Fərman Samir oğluna verilmiş AA 10482 nömrəli gəmi biletləri itdiyi üçün etibarsız sayılır.**

# Lütvəli Babayevin Azərbaycandakı biznesi çökdü

## Vəzifəsini itirdikdən sonra sabiq icra başçısının başı üstündən "qara buludlar" çəkilmək bilmir

***Ümumilikdə 14 il icra başçısı işləmiş Lütvəli Babayevin siyasi karyerası bitdikdən sonra işləri qaydasında getmir. Onun Azərbaycandakı iki şirkətinin faktiki olaraq fəaliyyətsiz qaldığı barədə məlumatlar yayılıb.***

İddialara görə, hər iki şirkət akademik Mirəli Qaşqay küçəsi ev 63A, mənzil 26 ünvanında hüquqi qeydiyyatda olub. Onlardan biri BLB" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Bu MMC-nin adının açması Babəli Lütvəli Babazadə deməkdir. B.Babazadə sabiq icra başçısının adı bir qayda olaraq qalmaqallarda keçən oğludur.

L.Babayevin ailəsinə məxsus ikinci şirkət isə "Top Point" MMC-dir. Bu şirkət isə Lütvəli müəllimin başqa bir ailə üzvünün - Rübabə Babayevanın adına açılıb.

Hər iki şirkətin 2023-cü ilin sonu, 2024-cü ilin əvvəllərindən etibarən faktiki şəkildə yalnız kağız üzərində mövcud olduğu deyilir.

İddialara görə, sözügedən MMC-lərin bağlanmaq ərəfəsində olmasının səbəbi sabiq icra başçısının öz postunu itirdikdən sonra ailə biznesini Rusiyaya köçürməsi ilə əlaqəlidir.

Belə ki, L.Babayev 2019-cu ildə Zərdab Rayon İcra Hakimiyyətinin başçısı postundan kənarlaşdırıldıqdan cəmi iki il sonra onun oğlu Moskvada "Liqa-Stroy" Məhdud Məsuliyyətli Cəmiyyətini (OOO LİQA-STROY) təsis edib. Postunu itirdiyi ildən Rusiyanın Novosibirsk vilayətinə köçən Lütvəli müəllim özü ilə biznesini də adı çəkilən ölkəyə daşımağa qərar verib. Proses tədrici xarakter daşıyıb və təxminən iki il öncə yekunlaşıb.

Sabiq icra başçısı hazırda ailəsi ilə birlikdə Novosibirsk şəhərində yaşayır. İki qızı və bir oğlu olan Lütvəli Babayev orada biznes fəaliyyəti ilə məşğuldur. Onun burada tikinti və otel biznesi var.

İqtisadiyyat üzrə fəlsəfə doktoru olan Lütvəli Babayevin Rusiyada universitetlərin birində müəllim fəaliyyəti ilə də məşğul olduğu deyilir. Onun yalnız yay aylarında dincəlmək üçün Azərbaycana gəldiyi bildirilir. Lakin sabiq icra başçısına yaxın qaynaqlar Babayevin müəllimlik fəaliyyəti ilə məşğul olduğuna dair xəbərləri təsdiqləmirlər. İddialara görə o, bütün diqqətini biznes fəaliyyətinə yönəldib. Buna səbəb isə vəzifədə olduğu müddətdə biznes işlərini həvalə etdiyi oğlu Babəli Babazadə ətrafında yaşanan son qalmaqaldır.

Söhbət 2 milyon manatlıq mənimsəmədən gedir.

Xatırladaq ki, Babəli Babazadənin bir dostu üçüncü şəxslə əlbir olaraq onun əmlaklarını 2 milyon manata sataraq pulunu mənimsəməkdə ittiham olunur.

Məsələ burasındadır ki, həmin hadisə baş verməzdən əvvəl B.Babayevin sahibi olduğu tikinti şirkətinin 1 milyon manat vergi borcu yaranıb. Bununla bağlı ona rəsmi məktub gəlib, verginin ödənilməli olduğu xatırladılıb. Bu məsələyə görə Babəli dostu Aruz Əliyevlə məsləhətləşib, ondan nə edə biləcəyini soruşub.

Aruz Əliyev özü isə həkim-cərrahdır. O, bu cinayətin üstü açılana kimi "Uniklinika"nın baş həkimi olub.

İddia olunur ki, Aruz külli miqdarda vergi borcu yaranmış Babəliyə ölkədən çıxmasının lazım olduğunu deyib. O, tanışı Ehtiram Kərimovla əlbir olaraq eks-icra başçısının oğlunun Türkiyəyə qaçmasına nail olub. Elə əsas hadisələr də bundan sonra başlayıb... Babəli Türkiyədə yaşadığı müddətdə Bakıdakı əmlaklarını idarə etmək üçün Aruza etibarnamə verib. O, əmlakları satışa çıxarıb. Dediyinə görə, Aruz onun etibarından sui-istifadə edib. Aruz və Ehtiram Babəlinin Binəqədi rayonunda yerləşən yarımtikilisini və Nərimanov rayonundakı əmlakını ümumilikdə 2 milyon manata satıblar. Bundan sonra həmin pulu əmlakların sahibinə verməmədən dələduzluq yolu ilə şəxsi mənafelərinə sərf ediblər. Zərərçəkmiş şəxsin şikayəti əsasında baş həkim Aruz Əliyev və Ehtiram Kərimov polis əməkdaşları tərəfindən tutulub. Onlara dələduzluq maddəsinin ən ağır bəndi ilə ittiham irəli sürülüb, hər ikisi haqda həbs qərarı verilib. İstintaq dövründə keçmiş icra başçısı Lütvəli Babayev də dindirilib. O, cinayət işi üzrə şahid qismində tanınıb.

Təqsirləndirilən şəxslər ittihamları qəbul etmirlər. Onlar deyirlər ki, zərərçəkmiş əmlaklarını könüllü satdırıb, pulunu da Türkiyədə xərcləyib. İttiham olunan tərəfin iddiasına görə isə Babəli ailəsinin əmlakını satıb xərclədikdən sonra vəziyyətdən çıxmaq məqsədilə dostundan istifadə edib.

Digər məlumata görə, Babəli Türkiyəyə qaçmazdan əvvəl xırda xuliqanlığa görə 15 gün həbsdə qalıb. Buraxıldıqdan dərhal sonra isə ölkədən gedib.

Oğlunun adı ətrafında bir-birini əvəzləyən qalmaqallardan sonra sabiq icra başçısı öz biznesinə birbaşa nəzarət və rəhbərlik etmək qərarına gəlib. Elə Azərbaycandakı iki şirkətinin fəaliyyətsiz vəziyyətə düşməsi də bir yandan bununla izah olunur. Belə ki, Lütvəli müəllimin eyni vaxtda həm Azərbaycanda, həm də Rusiyadakı şirkətləri kontrolda saxlamasının mümkünsüzlüyü səbəbindən bütün biznesini qonşu ölkəyə köçürməyi qərarlaşdırdığına dair iddialar var.



Qeyd edək ki, Lütvəli Babayev 2007-2019-cu illərdə Zərdab rayon, 2005-2007-ci illərdə Mingəçevir şəhər icra hakimiyyətinin başçısı olub.

***Toğrul Əliyev***

## 5.3.13. informasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# "Süni İntellekt Strategiyası" nə vəd edir?

## Osman Gündüz:" Bu Strategiya, Azərbaycanın rəqəmsal gələcəyini qurmaq üçün əsas addımlardan biridir"

***Olkəmizdə informasiya və kommunikasiya texnologiyalarının inkişafı dövlətin diqqət mərkəzindədir. Ötən ay Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2025 - 2028-ci illəri əhatə edən "Süni İntellekt Strategiyası" təsdiq edildi.***



Bu sənəd ölkənin süni intellekt sahəsində inkişafını sürətləndirmək, rəqəmsal inkişafı dəstəkləmək və qlobal süni intellekt ekosistemində Azərbaycanın rolunu gücləndirmək məqsədi daşıyır. Strategiyanın əsas məqsədləri sırasında qeyd edilən sahədə innovasiya və rəqəmsal inkişafın təşviqi, iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasıdır. Burada ixtisaslı kadr hazırlığı, bilik və bacarıqların genişləndirilməsi, dövlət və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsi, məlumat təhlükəsizliyi və etik qaydalara əsaslanan idarəetmə mexanizmlərinin qurulması yer alır. Strategiyaya əsasən, süni intellekt sahəsində startap ekosisteminin inkişafı üçün investisiyaların artırılması, süni intellektin kommersiyalaşdırılmasını dəstəkləyən təşəbbüslərin həyata keçirilməsi, startap və sahibkarların dəstəklənməsi, yerli və xarici investorların bu sahəyə cəlb edilməsi planlaşdırılır.Həmçinin süni intellekt sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinə dəstək mexanizmlərinin genişləndirilməsi, o cümlədən güzəştli kreditlərin verilməsi ilə bağlı tədbirlər görüləcək. Bir sözlə, bu strategiya, həmçinin süni intellekt ekosisteminin formalaşdırılması və ölkənin qlobal süni intellekt platformalarında aktiv iştirakını təmin etmək üçün bir yol xəritəsi kimi çıxış edəcək.

İKT üzrə ekspert Osman Gündüz "Unikal" qəzetinə açıqlamasında bildirib ki, belə bir vacib sənədin qəbulu ölkəmiz üçün əhəmiyyətli bir hadisədir. Çünki, dünyada, regionda hazırda bu istiqamətdə amansız bir rəqabət var. Odur ki, ölkəmizin bu prosesdən geri qalması heç bir halda doğru olmazdı. Onun sözlərinə görə, bu baxımdan sənəddə xeyli əhəmiyyətli məqamlar gözə dəyir:" Ümumiyyətlə, Strategiya süni intellekt sahəsində Azərbaycanın konkret hədəflərini, məqsədlərini və ona uyğun da vəzifələri və tədbirləri müəyyənləşdirib.

Konkret tədbirlər, icra müddəti və məsul qurumlar, gözlənilən nəticələr nəzərdə tutulub. 4 əsas istiqamət üzrə 15 tədbir müəyyən edilib. Süni intellektin tətbiqi üzrə prioritet istiqamətlər, əlaqəli dövlət qurumlarının siyahısı hökumət tərəfindən təsdiqlənməlidir".

Ekspert bildirib ki,burada diqqət cəlb edən məsələ həm də Strategiyadakı tədbirlərin əlaqələndirilməsi və icraya nəzarət hansısa bir mərkəzi icra qurumuna deyil, birbaşa Nazirlər Kabinetinə verilməsidir. O, vurğulayıb ki, bu Strategiya Azərbaycanın rəqəmsal gələcəyini qurmaq üçün əsas addımlardan biridir.

"Sənəd ölkədə süni intellekt ekosisteminin formalaşmasına və bununla əlaqəli əlverişli mühitin inkişafına, kadr potensialının yaradılmasına təkan verəcək. Qeyd olunanların reallaşdırılması təkcə texnoloji inkişafı deyil, həm də iqtisadi, sosial və beynəlxalq sahələrdə ölkəmizin mövqeyini gücləndirəcək.

Düşünürəm ki, bu Strategiya, Azərbaycanın rəqabət qabiliyyətinin güclənməsində mühüm rol oynayacaq.

Əlbəttə, uğur qazanmaq üçün Strategiyanın effektiv şəkildə həyata keçirilməsi, resursların düzgün bölüşdürülməsi və davamlı monitorinq zəruridir".

O. Gündüz bildirib ki, artıq ölkəmizdə süni intellekt ekosisteminin formalaşması xeyli sürətlənib.

Prezident tərəfindən Süni İntellekt Strategiyasının qəbulundan sonra bu sahədə ciddi irəliləyiş və canlanma müşahidə olunur. İstiqamət üzrə infrastruktur qurulur (iki Superkompüter Mərkəzi qurulur), bir neçə universitetdə (AzTU, UNEC, ADA və s.) elmi və tədris müstəvisində əhəmiyyətli addımlar atılır, AI Akademiyalar və ixtisaslaşmış kurslar formalaşır, həmçinin özəl sektorun da fəallığı nəzərəçarpacaq dərəcədə artır. Süni intellekt sahəsində startapların sayı getdikcə çoxalır və bu sahəyə maraq genişlənir:" Artıq KOBİA-da Startap Şəhadətnaməsinin verilməsi üzrə Ekspertlər Şurasında Azərbaycanın çox maraqlı bir süni intellekt startapının təqdimatı da keçirilib.

Bütün bunlar onu göstərir ki, artıq ölkəmizdə bu sahədə innovativ təşəbbüslər formalaşmağa başlayıb.

Ehtiyac var ki, strategiyanın icrasına cavabdeh qurumlar, İRİA, investorlar və fondlar bu tip təşəbbüslərə diqqəti daha da artırsınlar.

Bu kontekstdə mühüm addımlardan biri də Azərbaycan Texniki Universitetində atılıb.

"AI-MED Baku 2025: Süni İntellekt və Biotibbi İnnovasiyalar üzrə Azərbaycan-Almaniya Strateji Tərəfdaşlıq Forumu" çərçivəsində universitetdə yüksək səviyyəli işgüzar görüş keçirilib və "AI-MED LAB" adlı ixtisaslaşmış laboratoriyanın açılışı baş tutub. Yeni yaradılan "AI-MED LAB" laboratoriyası AzTU-nun Biotibbi Mühəndislik İnstitutunun nəzdində fəaliyyət göstərəcək və burada süni intellekt alqoritmlərinin səhiyyə və biotibbi mühəndislik sahəsində tətbiqinə yönəlmiş qabaqcıl elmi-tədqiqatlar həyata keçiriləcək. Bu təşəbbüs təkcə elmi inkişaf baxımından deyil, həm də süni intellekt sahəsində kadr potensialının yetişdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Bütün bunların da Azərbaycanda süni intellekt sahəsində yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasına real töhfə verəcəyini proqnozlaşdırmaq olar".

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




# Dünya şöhrətli "NomadMania" səyyah klubunun Qarabağa səfəri başladı

***Dünyanın 30 ölkəsinin - ABŞ, Britaniya, Belçika, Almaniya, İsveçrə, Polşa, Niderland, Fransa, Braziliya, Mərakeş, Danimarka, Çili, Portuqaliya, Sierra Leone, Ruanda, Suriya, Hindistan, Serbiya, Yunanıstan, Albaniya, Türkiyə, Slovakiya, Sinqapur, İtaliya, İspaniya, İran, Kamerun, Çin, Avstraliya və Yeni Zelandiyanın səyyah elitasında yer alan nüfuzlu beynəlxalq səyahətçilərin Qarabağa səfəri başlayır.***

"Unikal" xəbər verir ki, heyət 3 gün ərzində Qarabağ və Şərqi Zəngəzurda olacaq, aparılan nəhəng bərpa və quruculuq işlərini, minatəmizləmə fəaliyyətini, Ermənistan tərəfindən işğal dövründə törədilmiş vəhşilikləri, dağıntıları müşahidə edəcək.

Qrupun rəhbəri dünyaşöhrətli səyyah, "NomadMania" klubunun təsisçisi Hari Mitsidisdir.

Bu səfər azad edilmiş ərazilərin "black tourism" çərçivəsində tanıdılmasında müstəsna rol oynayır.

Qeyd edək ki, Vətən müharibəsindən ötən 5 il ərzində dünyanın əsas beynəlxalq səyyah şəbəkələrinin - ETIC, MTP, TCC, "NomadMania" və əksəriyyəti bu klubların üzvləri olan Türkiyə Gəzginlər Klubu, "Club-100" (İsveç), "Piki Reels" (Böyük Britaniya), "Vagaclub" (Norveç) klublarının geniş tərkibdə heyətlərinin 12 dəfə Qarabağ və Şərqi Zəngəzura səfərləri gerçəkləşib. Budəfəki səfər isə prosesin davamı olmaqla, beynəlxalq səyyahların azad edilmiş ərazilərə sayca 13-cü qrup səfəridir.

# İstanbulda "Azərbaycan Kino Günləri" təşkil olunacaq

***Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlığa dair Sazişə əsasən, iki qardaş ölkə arasında kino sahəsində əlaqələrin genişləndirilməsi istiqamətində növbəti mühüm addım atılır.***




Bu barədə "Unikal"a Mədəniyyət Nazirliyindən məlumat verilib. 2025-ci ilin 28 - 30 aprel tarixlərində İstanbul şəhərində "Azərbaycan Kino Günləri" təşkil olunacaqdır. Tədbir Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Türkiyə Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı Mədəniyyət Mərkəzinin birgə əməkdaşlıq çərçivəsində həyata keçirilir.

Kino Günləri zamanı son illərdə Mədəniyyət Nazirliyinin sifarişi ilə istehsal olunmuş Azərbaycan filmlərinin nümayişi baş tutacaq.

Tədbir çərçivəsində Azərbaycan və Türkiyə film istehsalçıları və mütəxəssisləri arasında görüşlər keçiriləcək, birgə film istehsalı imkanları müzakirə olunacaq.

Qeyd edək ki, tədbirin açılış mərasimi və filmlərin nümayişi İstanbul şəhərində yerləşən Atlas Cinemada və Türkiyənin iki nüfuzlu universitetində həyata keçiriləcək. Türkiyədə keçiriləcək "Azərbaycan Kino Günləri"ndə Azərbaycan nümayəndə heyəti iştirak edəcək.

# Autizm ilə bağlı statistika bütün dünyanı narahat edir

## Bahar Muradova: "İnanıram ki, birgə səylərimizlə daha inklüziv və mərhəmətli bir cəmiyyət qurmaq mümkün olacaq"




***Azərbaycanda autizm sahəsində aparılan işlər və bu istiqamətdə əldə olunan nailiyyətlər cəmiyyətimizin həssas mövzulara diqqət yetirdiyini və bu sahədə mühüm irəliləyişlərin əldə olunduğunu göstərir".***

Bu fikirləri Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Bakıda keçirilən Beynəlxalq Autizm Konfransının açılış mərasimində deyib. O qeyd edib ki, son illərdə autizm spektr pozuntuları ilə bağlı statistik göstəricilər təkcə Azərbaycanı deyil, bütün dünyanı ciddi narahat edir: "Bu artımın səbəbləri və elmi izahları ayrı-ayrı müzakirə mövzusudur. Lakin bizim əsas vəzifəmiz bu məsələnin cəmiyyətdə yaratdığı təsirləri azaltmaq və bu vəziyyətdən əziyyət çəkən insanlara vaxtında və effektiv dəstək göstərməkdir. Konfrans çərçivəsində edilən çıxışlar və təqdimatlar bu sahədə görülən işlərin, əldə olunan uğurların real göstəricisidir. Sağlam cəmiyyətin qurulması üçün, ilk növbədə, dəstəyə ehtiyacı olan insanların yanında olmaq, onlara psixoloji, sosial və praktiki dəstək göstərmək əsas şərtdir".

Dövlət Komitəsinin sədri Azərbaycanda autizm sahəsində son illərdə çox mühüm addımlar atıldığını deyib: "Dövlətimizin bu sahəyə göstərdiyi dəstək təqdirəlayiqdir. Xüsusilə qeyd etmək istəyirəm ki, bu istiqamətdə aparılan səylərin səfərbəredici gücü Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu sahəyə verdiyi diqqət və qayğı ilə birbaşa bağlıdır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi olaraq biz də autizmli uşaqlar və onların ailələri üçün psixoloji dəstək və təlim proqramları təşkil edir, bu fərdlərin cəmiyyətə inteqrasiyası üçün davamlı fəaliyyət göstəririk. İnanıram ki, birgə səylərimizlə daha inklüziv və mərhəmətli bir cəmiyyət qurmaq mümkün olacaq".

# Səidə Şəfiyeva: "Böhran vəziyyətlərində strateji kommunikasiya daha da önə çıxır"

***Medianın İnkişafı Agentliyi tərəfindən 2021-ci ildən etibarən ənənəvi olaraq dövlət orqan və qurumlarının mətbuat xidmətlərinin rəhbərləri üçün xarici mütəxəssislərin iştirakı ilə təlimlər təşkil edilir. İndiyədək həmin təlimlər 200-dən çox iştirakçını əhatə edib.***



Bunu jurnalistlərə açıqlamasında Medianın İnkişafı Agentliyinin kommunikasiya şöbəsinin müdiri Səidə Şəfiyeva deyib.

Budəfəki təlim proqramının mövzusunun "Strateji kommunikasiya və böhran kommunikasiyasında yeni trendlər" olduğunu qeyd edən S.Şəfiyeva informasiyanın sürətlə yayıldığı bir dövrdə hər bir dövlət qurumu və təşkilat üçün strateji kommunikasiyanın mühüm əhəmiyyət kəsb etdiyini bildirib: "Bu sahə ictimaiyyətlə qurum arasında etibarlı əlaqələrin yaradılması, məlumatın məqsədyönlü və şəffaf şəkildə ötürülməsi və ictimai inamın formalaşdırılmasında əsas rol oynayır. Xüsusilə böhran vəziyyətlərində strateji kommunikasiya daha da önə çıxır. Yəni böhran vəziyyəti baş verdikdə onun effektiv idarə olunması və kommunikasiyası üçün strategiya və davranış alqoritmlərinin öncədən müəyyənləşdirilməsi böhran vəziyyətlərində dövlət qurumlarının daha çevik və daha hazırlıqlı olmalarını təmin edir. Ona görə də budəfəki təlim proqramının əsas mövzusu məhz elə buna həsr olunub".

# Ali Məhkəmə vahid məhkəmə təcrübəsini müəyyən edən daha bir qərar verib

***Bu barədə "Unikal"a Ali Məhkəmənin mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, işin hallarına görə, təqsirləndirilən şəxs yetkinlik yaşına çatmayan oğlunu cinayətkar fəaliyyətə cəlb edib, tamah niyyətilə özgənin əmlakını gizli olaraq qəsdən talama məqsədilə rayon ərazisində vətəndaşın istifadədə olmayan balıqartırma gölünün ərazisindən açıq sahədən bir neçə dəfəyə 2600 manat dəyərində elektrik naqilini, 1560 manat dəyərində işıq dirəyini, 300 manat dəyərində ikilaylı 1 ədəd dəmir qapını, 210 manat dəyərində 7 ədəd işıq lampasını və 300 manat dəyərində 15 ədəd su axınını tənzimləyən dəmir qapağı gizli olaraq talayıb zərər çəkmiş şəxsə ümumilikdə 4970 manat məbləğində maddi ziyan vurublar.***

Birinci instansiya məhkəməsinin hökmünə əsasən, təqsirləndirilən şəxs CM-in 170.1 (On səkkiz yaşına çatmış şəxs tərəfindən yetkinlik yaşına çatmayanı aldatma, vədlər vermə hədə-qorxu vasitəsilə cinayətkar fəaliyyətə cəlb etmə) və 177.2.1-ci (Oğurluq qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddələri ilə nəzərdə tutulmuş cinayət əməllərini törətməkdə təqsirli bilinərək 2 il 3 ay müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilib. Həmin hökmlə həmçinin digər təqsirləndirilən şəxs olan övladı CM-in 177.2.1-ci maddəsində nəzərdə tutulan cinayət əməlini törətməkdə təqsirli bilinərək 1 il müddətə azadlığın məhdudlaşdırılması cəzasına məhkum olunub.

Hökmdən verilmiş apellyasiya protestinə və müdafiəçi tərəfindən verilmiş apellyasiya şikayətinə əsasən işə baxan apellyasiya instansiyası məhkəməsinin qərarı ilə apellyasiya şikayəti təmin edilməmiş, apellyasiya protesti qismən təmin edilərək hökm apellyasiya protestinə münasibətdə, məhkum edilmiş şəxsin cəzaçəkmə müddətinin başlanğıcının hesablanması ilə bağlı hissədə və hökmün nəticə hissəsində qeyd edilən məhkum edilmiş şəxsin ad, soyad və ata adı ilə bağlı hissədə dəyişdirilib, qalan hissələrdə isə dəyişdirilmədən saxlanılıb. Daha sonra iş üzrə Ali Məhkəməyə kassasiya protesti ilə şikayət verilib.

Azərbaycan Respublikası Ali Məhkəməsinin mövqeyi budur ki, işə mahiyyəti üzrə baxmış məhkəmələr məhkumun yetkinlik yaşına çatmayan şəxsi cinayətkar fəaliyyətə cəlb edərək, eyni zamanda, onunla qabaqcadan əlbir olmuş bir qrup şəxs halında oğurluq cinayətini törətməsi haqda ibtidai araşdırma orqanının gəldiyi nəticə ilə razılaşmış, lakin, ibtidai araşdırma orqanından fərqli olaraq məhkəmələrin iş üzrə gəldikləri qənaət ondan ibarət olub ki, məhkum cinayətkar fəaliyyətə cəlb etdiyi şəxsi (iş üzrə digər məhkum edilmiş şəxs) tərbiyə etmək vəzifəsini daşımadığına görə o, CM-in 170.2-ci maddəsində nəzərdə tutulmuş cinayətin subyekti hesab edilə bilməz, buna görə də o, CM-in 170.1-ci maddəsi ilə təqsirli bilinərək cəzalandırılmalıdır.

Cinayət qanununun normasında yetkinlik yaşına çatmayanı tərbiyə etmək vəzifəsini daşıyan şəxslərə kimlərin aid olması konkret olaraq göstərilməsə də, məhkəmə kollegiyası digər qanunvericilik aktlarının tələblərindən çıxış edərək və məsələyə təkcə ailə qanunvericiliyinin və digər qanunvericilik aktlarının deyil, həm də cinayət qanununun normasının tələbləri baxımından yanaşaraq hesab edib ki, belə şəxslərə ilk növbədə yetkinlik yaşına çatmayanın valideynləri, daha sonra onun qəyyumları və himayədarları, təhsil müəssisələrinin, uşaq evlərinin müəllimləri, tərbiyəçiləri, qanunvericilikdə nəzərdə tutulmuş qaydada uşağı övladlığa götürmüş şəxslər, habelə normativ və qeyri-normativ hüquqi aktlarla, məhkəmə qərarları ilə üzərlərinə uşağı tərbiyə etmək vəzifəsi qoyulmuş digər şəxslər aiddirlər. Bununla belə, uşağı tərbiyə etmək vəzifəsi üzərlərinə qoyulmamış onun yaxın qohumları və qohumluq əlaqələri olan şəxslər (babalar, nənələr, bacı və qardaşlar və s.), uşağı övladlığa götürməmiş ögey valideynlər və digər şəxslər həm CM-in 170.2-ci maddəsinin, həm də digər qanunvericilik aktlarının tələblərinə və mənasına görə göstərilən maddədə nəzərdə tutulmuş cinayətin subyekti hesab edilə bilməzlər.



Məhkəmə kollegiyası belə qənaətə gəlib ki, işə mahiyyəti üzrə baxmış birinci və apellyasiya instansiyası məhkəmələri məhkumun CM-in 170.2-ci maddəsinin subyekti olmaması, yəni onun yetkinlik yaşına çatmayan övladını tərbiyə etmək vəzifəsini daşımaması barədə nəticəyə gələrkən, bunun əksini təsdiq edən sübutlara lazımi qaydada qiymət verməyib, öz nəticələrini isə qəbul etdikləri yekun məhkəmə aktlarında kifayət qədər əsaslandırmayıblar.

Məhkəmə kollegiyası vurğulayıb ki, məhkumun təqsirli bilindiyi oğurluq cinayətini törədənədək onun himayəsində olan uşaqları, o cümlədən övladını tərbiyə etmək vəzifəsindən azad olunmasına əsas olan hər hansı hal müəyyən edilməyib və məhkəmələr bu halı da təsdiq edən sübutları əldə etməyərək yekun məhkəmə aktlarında belə sübutlara əsaslanıblar. Məhkəmə kollegiyasının qənaətinə görə, məhkumun törətdiyi yetkinlik yaşına çatmayan şəxsi cinayətkar fəaliyyətə cəlbetmə cinayət əməlinin qanuna müvafiq qaydada düzgün tövsif edilməsi üçün belə sübutların da əldə edilərək araşdırılması zəruri olub. Çünki hər hansı əsasla şəxsin cinayət törətməyə sövq etdiyi yetkinlik yaşına çatmayan şəxsi tərbiyə etmək vəzifəsindən azad olunması və ya məhrum edilməsi müəyyən edildikdə onun CM-in 170.2-ci maddəsində nəzərdə tutulmuş cinayətin subyekti hesab edilməsi və onun bu maddə ilə cinayət məsuliyyətinə cəlb edilərək təqsirli bilinməsi istisna olunur.

Şərh olunanlara əsasən məhkəmə kollegiyası belə nəticəyə gəlib ki, birinci instansiya məhkəməsinin məhkumun cinayətkar fəaliyyətə cəlb etdiyi övladını tərbiyə etmək vəzifəsini daşımaması, buna görə onun əməlinin CM-in 170.1-ci maddəsi ilə tövsif edilməsi haqqında hökmü ilə razılaşarkən apellyasiya instansiyası məhkəməsi tərəfindən pozuntuya yol verilib və buna görə də həmin qərar ləğv edilməklə cinayət işi yeni apellyasiya baxışına təyin olunmalıdır.

15_27 IYUl-QARA.qxd 4/24/2025 11:04 PM Page 14



# Ehtiyatdan çağırılan hərbçilərə təlimlər keçirilir

***Müdafiə Nazirliyinin illik hazırlıq planına əsasən, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə keçirilən tədbirlər çərçivəsində hərbi hissələrdə ehtiyatdan çağırılan bir qrup hərbi vəzifəlilərin cəlb edildiyi təlim toplanışında praktiki məşğələlərə xüsusi diqqət yetirilir.***



Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib. Tədris proqramına müvafiq olaraq, toplanışa cəlb edilmiş heyətlə xüsusi təyinatlı hərbi hissələrdən birində nəzəri və praktiki məşğələlər keçirilib, hərbi vəzifəlilərin sıra hazırlığı təkmilləşdirilib.

Müxtəlif təlim sahələrində baş tutmuş məşğələlər zamanı əvvəlcə hərbi vəzifəlilərə döyüş zamanı ilkin tibbi yardımın göstərilməsi qaydaları öyrədilib, yaralıların ərazidən təxliyə edilməsi üsulları məşq etdirilib, eləcə də Azərbaycan Ordusunun mühəndis bölmələrinin silahlanmasında olan müasir xüsusi vasitələr barədə geniş məlumat verilib.

Məşğələlər zaman hərbi vəzifəlilər bölmələrimizin silahlanmasında olan atıcı silahların natamam sökülüb-yığılması üzrə praktiki vərdişlərini sınayıblar, həmçinin fərdi kimyəvi mühafizə vasitələrindən istifadə qaydalarını öyrəniblər.

Hərbi vəzifəlilərlə maarifləndirici söhbətlər aparıldıqdan və təhlükəsizlik qaydaları çatdırıldıqdan sonra onlar müxtəlif atıcı silahlardan praktiki atış çalışmalarını müvəffəqiyyətlə icra ediblər.

Plana uyğun olaraq, təlim iştirakçılarının döyüş hazırlığı səviyyəsinin, bilik və bacarıqlarının artırılması, praktiki vərdişlərinin təkmilləşdirilməsi, eləcə də ordumuzun arsenalına yeni daxil edilmiş silahlarla tanış olmaq, onların döyüş tətbiqini öyrənmək məqsədilə keçirilən təlim toplanışı davam edir.

# Cəlilabadın şəhid oğlu Rəvan Məmmədov

***Rəvan İntiqam oğlu Məmmədovun qəlbində Vətəninə, doğma torpağına ilahi bir sevgi var idi. 44 günlük haqq savaşımızda elə onu bu sevgi müqəddəs şəhidlik zirvəsinə ucaldıb.***



Odur ki, 1998-ci il fevralın 17-də Cəlilabad rayonunun Novruzallı kəndində dünyaya göz açan Vətən sevdalısının qısa, olduqca şərəfli ömür yolu örnək kimi əbədi yaddaşlara köçüb. Hər dəfə qəhrəman Rəvanın adı çəkiləndə bütün Azərbaycan xalqı qürur hissi keçirdir.

Canında, qanında Vətən sevgisi, hədsiz yurd məhəbbəti olan Rəvan Məmmədov orta məktəbdən sonra cəbhə bölgəsində ordu sıralarında əsgərlik borcunu mərdliklə, ləyaqətlə yerinə yetirib. Nümunəvi xidməti, doğma Azərbaycana sonsuz sevgisi, dosta sədaqəti ona yalnız hörmət qazandırıb. Hərbi təlimlər zamanı bütün çətinlikləri uğurla başa vurması düşmənə əsir düşən Qarabağımızın azadlığı naminə olub. Hərbi hissədə inamlı çıxışları ilə əsgər yoldaşlarını düşməndən qisas almağa ruhlandırıb. Əsgərlik müddəti başa çatanda artıq Rəvan bacarıqlı, səriştəli bir döyüşçü kimi yetişib. Sinəsini Vətənə sipər edib erməni dığaların layiqli cavabını verməyə özündə tükənməz qüvvə hiss edib.

44 günlük haqq savaşımızın ilk günündə Rəvan Məmmədov odlu səngərdə yağıya qarşı cəngavər tək döyüşə girib. Ağır itki qarşısında qalan erməni hərbiçiləri geri çəkilməyə, sonra da qaçmağa başlayıb. Beləcə Vətən sevgisi, erməni quldurlardan intiqam almaq hissi Rəvanı yalnız qələbəyə doğru aparıb. Ardınca neçə-neçə uğurlu əməliyyatlarda yaxından iştirak edib və zəfərlə çıxıb. Ən çox Füzuli istiqamətində gedən hərbi əməliyyatda şəxsi şücaətlər göstərib və hərbçi yoldaşları ilə birlikdə düşmənə sarsıdıcı zərbələr endirib, onun canlı qüvvəsini məhv edib. Bu həm də Rəvanın son döyüşü olub. Oktyabrın 10- da ölüm-dirim müharibə meydanında düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhid olaraq adını qəhrəmanlıq tariximizə yazıb. Yaddaşlarda yurd-yuva quran Rəvan İntiqam oğlu Məmmədov həm də dövlət tərəfindən "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilib.

İndi hər bir cəlilabadlı şərəfli ömür sahibi Rəvan Məmmədovu özünə iftixar mənbəyi, qürur yeri bilir. Onun doğma kəndi Novruzallıda yatdığı torpağı isə müqəddəs yer sayırlar.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Vaksinasiyadan kənarda qalan uşaqlar peyvəndlənəcəklər

***Azərbaycanın səhiyyə naziri Teymur Musayev 27 aprel - 3 may 2025-ci il tarixlərində respublikanın bütün şəhər və rayonlarında "İmmunlaşdırma həftəsi"nin keçirilməsi ilə bağlı Əmr imzalayıb.***

Bu barədə "Unikal"a Səhiyyə Nazirliyindən məlumat verilib.

Əmr Ümumdünya Səhiyyə Təşkilatının təşəbbüsü ilə 2006-cı ildən etibarən Avropa regionunda keçirilən "İmmunlaşdırma həftəsi"nin ölkəmizdə də yüksək səviyyədə təşkili məqsədini daşıyır.

Sənədə əsasən, Azərbaycanın bütün şəhər və rayonlarında təşkilatı-hüquqi formasından asılı olmayaraq, uşaq əhalisinə ambulator-poliklinik xidmət göstərən bütün tibb idarə və müəssisələrin rəhbərlərinə "İmmunlaşdırma həftəsi"nin keçirilməsi tapşırılıb.

Respublikanın şəhər və rayonlarında hər hansı səbəbə görə vaksinasiyadan kənarda qalan uşaqların "İmmunlaşdırma həftəsi" ərzində peyvəndlərə cəlb edilməsi sənəddə öz əksini tapıb. Eyni zamanda, uşaqların vaksinasiyasını həyata keçirən tibb müəssisələrinə immunlaşdırma tədbirlərinin təşkilində metodiki köməkliyin göstərilməsi, əhalinin bu barədə maarifləndirilməsi kimi məsələlərin təşkili də nəzərdə tutulub.



# Məxfi məlumatları paylaşmayın! - Daha bir xəbərdarlıq

***Aprelin 23-də vətəndaşların bank kartlarından 20332 manat oğurlanıb.***



"Unikal" xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyinin (DİN) vətəndaşlara növbəti müraciətində bildirilib.

Qeyd olunub ki, vətəndaşların bank kartlarından oğurluqlar davam edir. Kartın üzərindəki CVV/CVC kodu, SMS vasitəsilə göndərilən OTP kodu, digər sizə məxsus sistemlərə giriş üçün lazım olan loqin və şifrələr, kartın PİN kodu məxfi məlumatlardır.

Bu məlumatların naməlum şəxslərə verildiyi halda hesabınızda olan pullar, yaxud pul yoxdursa, kredit formasında sizə zərər vuracaqlar.

Bildirilib ki, ötən gün aprelin 23-də ayrı-ayrı vətəndaşların müxtəlif kiber üsulla 9920, 1800, 1411, 1390, 1255, 924, 658, 500, 498, 485, 400, 240, 220, 125, 100, 100, 100, 86, 70, 50 manat pul vəsaitləri bank kartlarından oğurlanıb:

"Bir daha vətəndaşlara şübhəli zənglərdən gələn cəlbedici qazanc, sığorta, viza işləri, bank hesablarının möhkəmləndirilməsi, mədaxil üzrə ödənişlərlə əlaqəli təkliflərə diqqətlə yanaşmağı tövsiyə edirik. Qəti formada şəxsi bank məlumatlarını naməlum şəxslərə verməyin, təhlükə var".

# Cinayətdə şübhəli bilinən 54 nəfər saxlanıldı



***Aprelin 23-də ölkə ərazisində qeydə alınan 49, əvvəlki dövrlərdən bağlı qalan 11 cinayətin açılması polis əməkdaşları tərəfindən təmin olunub.***

DİN-in Mətbuat Xidmətindən "Unikal"a verilən məlumata görə, axtarışda olduğuna görə ümumilikdə 111, o cümlədən borclu şəxs qismində axtarışda olan 100 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Narkotiklərlə əlaqəli 25, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 5 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 54 nəfər saxlanılıb.

# Samuxda orta aylıq nominal əməkhaqqı 12,0 faiz artıb

***2025-ci ilin yanvar-fevral ayları ərzində siyahı tərkibində olan işçilərin sayı 5569 nəfər və hər bir işçiyə düşən orta aylıq nominal əməkhaqqı əvvəlki ilin eyni dövrünə nisbətən 12,0 faiz artaraq 697,6 manat təşkil etmişdir. Dövlət müəssisələrində siyahı tərkibində olan işçilərin sayı 3973 nəfər, orta aylıq nominal əməkhaqqı 756,4 manat, qeyri-dövlət müəssisələrində isə siyahı tərkibində olan işçilərin sayı 1596 nəfər, orta aylıq nominal əməkhaqqı 545,6 manat olmuşdur.***

2025-ci ilin yanvar-fevral aylarında siyahı tərkibində olan işçilərin 35,7 faizi təhsil, 8,2 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,7 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 13,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 10,5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 7,0 faizi istirahət, əyləncə və incəsənət, 9,8 faizi sənaye, 2,6 faizi tikinti, 4,9 faizi isə iqtisadiyyatın digər fəaliyyət növləri ilə məşğul olan sahələrin payına düşmüşdür.

***Samux rayon Statistika İdarəsi***

15_27 IYUl-QARA.qxd 4/24/2025 11:05 PM Page 15





## "Tramp Zelenskini parça-parça etdi"

***"Tramp "Truth Social" sosial şəbəkəsində Zelenskini parça-parça etdi".***

"Unikal" xəbər verir ki, bunu Fransanın "Vətənpərvərlər" Partiyasının lideri Florian Filippot deyib.

O, ABŞ prezidenti Donald Trampın sosial şəbəkədə Zelenskinin Rusiya ilə sülh danışıqlarını pozması ilə bağlı paylaşımına münasibət bildirib. Siyasətçi qeyd edib ki, "Tramp hər zaman sülhdən imtina edən bir insanı ifşa edib".

***Gülayə Mecid***

## Fransada həbsxanaya hücum edilib

***Aprelin 23-dən 24-nə keçən gecə Fransanın Buş-du-Ron departamentində iki cəzaçəkmə müəssisəsinə hücum edilib.***

"Unikal" xəbər verir ki, bu barədə BFMTV məlumat yayıb. Mövcud məlumata görə, Eks-Luynes istintaq təcridxanasına atəşfəşanlıqla hücum edilib. Gecə yarısından az sonra işçilər yaxınlıqdakı dayanacaqdan binaya atəş açıldığını bildiriblər.

Elə həmin gecə Marseldəki La Valentine uşaq həbsxanasının işçiləri binanın yaxınlığında iki kiçik yanğın olduğunu bildiriblər.

## Kolumbiya prezidenti narkomaniyada ittiham olunur

***Kolumbiyanın keçmiş xarici işlər naziri Alvaro Leiva ölkə prezidenti Qustavo Petronu narkomaniyada ittiham edib.***

"Unikal" xəbər verir ki, diplomat bu barədə "X" hesabında məlumat paylaşıb.

O, açıq şəkildə ölkə rəhbərinə müraciət edib.

***Gülayə Mecid***

## ABŞ-da yeni virus yayılmağa başlayıb

***ABŞ-nin Texas ştatında qızılca epidemiyasında yoluxma halları sürətlə artır.***

"Unikal" xəbər verir ki, Texas Dövlət Səhiyyə Xidmətləri Departamentinin (DSHS) açıqladığı məlumatlara görə, indiyədək 624 nəfər qızılcaya yoluxub.

Hadisələrin demək olar ki, hamısı peyvənd olunmamış insanlar arasında baş verib. Səlahiyyətlilər tərəfindən edilən açıqlamada, epidemiyanın yayılmasına nəzarət etmək üçün yerli səhiyyə idarələri ilə işlərin davam etdiyi qeyd edilib.

## "Zelenski danışıqlar apara bilmir" - Zaxarova

***"Ukrayna prezidenti Volodimir Zelenskinin Krımın Rusiya ərazisi kimi tanınmaması ilə bağlı bəyanatı Kiyevin danışıqlar apara bilmədiyini bir daha nümayiş etdirib".***

"Unikal" xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova brifinq zamanı deyib. "Kiyev rejiminin şizofrenik yanaşması bir daha onun danışıqlar aparmaqda qəti acizliyini, məsuliyyətsizliyini və bu qırğına son ukraynalıya qədər davam etmək istəyini nümayiş etdirdi", - deyə Zaxarova bildirib.

***Gülayə Mecid***

# Tokayev AZAL təyyarəsinin qəzaya uğramasından danışdı

***Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev AZAL təyyarəsinin Aktau yaxınlığında qəzaya uğramasından danışıb.***

"Unikal" xəbər verir ki, bu barədə o, Qazaxıstan Xalqları Assambleyasının növbəti sessiyasında çıxışı zamanı bildirib.

Prezident qəzanı xatırladaraq faciə zamanı qazaxıstanlıların hadisəyə çevik reaksiyasından bəhs edib: "Keçən il Aktau yaxınlığında təyyarə qəzası baş verəndə buna bir daha əmin olduq. Vətəndaşlarımız zərərçəkənlərə kömək etməyə tələsdilər. Onlar qan vermək üçün növbəyə durdular. Onlar Azərbaycan səfirliyinin önünə gül dəstələri düzdülər. Bütün dünya xalqımızın birliyinə, fədakarlığına heyran oldu. O an qəlbimizin genişliyi, açıqlığı və mehribanlığı və



mərhəməti üzə çıxdı. Milli xarakterimizin xüsusiyyətlərini qoruyub saxlamalı və onları gənc nəslə ötürməliyik".

Xatırladaq ki, 2024-cü il dekabrın 25-də Aktau hava limanından 3 kilometr aralıda Azərbaycan Hava Yollarının (AZAL) "Embraer" təyyarəsinin iştirakı ilə faciəvi təyyarə qəzası baş verib.

Qəzanın təhqiqatına ICAO (Beynəlxalq Mülki Aviasiya Təşkilatı) konvensiyasına uyğun olaraq Qazaxıstan rəhbərlik edir. İşdə Azərbaycan, Rusiya mütəxəssisləri, beynəlxalq ekspertlər və "Embraer" nümayəndələri iştirak edirlər. "Qara qutu"lar açılıb və beynəlxalq ekspertlərin iştirakı ilə deşifrə edilir.

Qazaxıstan Fövqəladə Hallar Nazirliyinin məlumatına görə, təyyarədə 62 sərnişin və 5 ekipaj üzvü olub: 42 Azərbaycan vətəndaşı, 16 Rusiya vətəndaşı, 6 Qazaxıstan və 3 Qırğızıstan vətəndaşı.

***Ağarza Elçinoğlu***

# "Moskva nüvə silahından istifadə etmək hüququna malikdir" - Şoyqu

***"Qərb ölkələrinin hücumu halında Moskva nüvə silahından istifadə etmək hüququnu özündə saxlayır".***

"Unikal" TASS-a istinadən xəbər verir ki, bunu Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu deyib.

Onun sözlərinə görə, belə bir halın baş verməsi hüquqidir. "2024-cü ilin noyabrında "Rusiya Federasiyasının nüvə silahının qarşısının alınması sahəsində dövlət siyasətinin əsaslarına" düzəlişlər edilib. Ona görə ki, Rusiya ona və ya Belarus Respublikasına qarşı hücum zamanı, o cümlədən adi silahlardan istifadə etməklə nüvə silahından istifadə etmək hüququnu özündə saxlasın", - o deyib.

Şoyqunun sözlərinə görə, Rusiya Avropa ölkələrinin hərbi hazırlıqlarını diqqətlə izləyir: "Rusiya Federasiyasının Milli Təhlükəsizlik Strategiyasına uyğun olaraq, xarici dövlətlər tərəfindən Rusiya Federasiyasının suverenliyinə və ərazi bütövlüyünə təhlükə yaradan qeyri-dost hərəkətlərə yol verildiyi halda, ölkəmiz bu cür hərəkətlərin qarşısını almaq üçün zəruri olan



simmetrik və asimmetrik tədbirlərin görülməsini qanuni hesab edir".

***Gülayə Mecid***

# Daha bir jurnalist müharibədə öldü

***"Zvezda" telekanalının müharibə müxbiri Nikita Qoldin LXR-də çəkiliş qrupunun atəşə tutulması zamanı yaralanmasından təxminən bir ay sonra Moskva xəstəxanasında dünyasını dəyişib.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya KİV məlumat yayıb.

"Təəssüf ki, həmkarımızın al-



dığı yaralar çox ağır idi", - "Zvezda"nın bəyanatında deyilir.

Martın 24-də jurnalistin getdiyi avtomobil Mixaylovka kəndi yaxınlığında HİMARS raketi ilə vurulub. Hücum nəticəsində "İzvestiya"nın üç əməkdaşı həlak olub. Eyni avtomobildə olan Qoldin başından ağır qəlpə yarası almışdı.

***Ağarza Elçinoğlu***

# Paşinyan Azərbaycan bayrağının yandırılmasını pislədi

***Xəbər verdiyimiz kimi, dünən İrəvanın Respublika meydanında ermənilər növbəti dəfə barbarlıqlarını nümayiş etdirərək Azərbaycan və Türkiyə bayraqlarını yandırıblar.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan Respublikasının baş nazirinin mətbuat katibi Nazeli Bağdasaryan açıqlama yayıb.

Baş nazirin mətbuat katibi məşəl yürüşü zamanı Türkiyə və Azərbaycan bayraqlarının yandırılması ilə bağlı baş nazir Nikol Paşinyanın münasibətini çatdırıb: "Baş nazir Paşinyan bu praktikanı pisləyir, bunu məsuliyyətsiz və qəbuledilməz hesab edir. Beynəlxalq səviyyədə tanınmış dövlətin, xüsusən də qonşu dövlətlərin bayraqlarının yandırılmasına dövlət başçısı tərəfindən başqa cür yanaşmaq olmaz. Bu, təxribatçı və təhrikedici bir təcrübədir".



***Ağarza Elçinoğlu***

15_27 IYUl-QARA.qxd 4/24/2025 11:26 PM Page 16



# Vətən şəhidlərinin xatirəsinə idman yarışları keçirilib

***Cəlilabadda Göytəpə şəhər 1 saylı tam orta məktəbin idman zalında təşkil edilən Vətən müharibəsinin zəfər şəhidi Ümid Qasımzadənin xatirəsinə həsr olunmuş ağırlıqqaldırma idman növü üzrə rayon turnirdə 8 çəki dərəcəsi üzrə 40 nəfər idmançı öz qüvvəsini sınayıb.***




Gərgin və maraqlı keçə yarışın qaliblərinə təşkilatçı olan Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin diplom və medallarla verilib.

Yardımlı rayonunda isə Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin təşkilatçılığı sayəsində Aprel şəhidlərinin xatirəsinə həsr olunmuş futzal idman növü üzrə rayon turniri baş tutub. 4 saylı tam orta məktəbdə keçirilən yarışda 6 məktəbin komandası mübarizə aparıb. Bütün rəqiblərini qalib gələn Ostair kənd tam orta məktəbin komandası turnirin birincisi olub. Bir, iki, üçüncü yerləri tutan qalib komandalar Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin kubok və diplomları ilə təltif olunublar.

***Zəfər Orucoğlu, AJB üzvü***

# "Penaltidir, amma vermirəm" - "Qarabağ"ın oyununu idarə edən hakim

***Aprel ayının 23-də futbol üzrə Azərbaycan Kubokunda "Qarabağ" "Araz-Naxçıvan"la qarşılaşıb.***

"Unikal" xəbər verir ki, oyunun 90-cı dəqiqəsindən sonrakı uzatmanın üçüncü dəqiqəsində 3-0 hesabı ilə məğlub olan "Araz-Naxçıvan" penalti ilə üzləşib. Oyunu idarə edən baş hakim Rəvan Həmzəzadə VAR-a baxdıqdan sonra həqiqətən penalti olduğunu dəqiqləşdirib. Lakin o, "Araz-Naxçıvan"ın qapısına penalti təyin etməyib.




Azarkeşlərdən biri tərəfindən çəkilən videoda Rəvan Həmzəzadənin bu qərarı əks olunub: "Razıyam sizinlə, uşaqlar. Penaldır, amma vermirəm. Oyuna davam edirik".

Daha sonra məlum olub ki, sözügedən epizodda top öncə "Qarabağ"ın futbolçusu Abdullah Zubirin əlinə, daha sonra "Araz-Naxçıvan"ın futbolçusuna dəyir. Buna görə də hakimin bu qərarı ədalətli hesab edilib.

Qeyd edək ki, Tofiq Bəhramov adına Respublika stadionunda baş tutan yarımfinal mərhələsinin cavab oyununda Ağdam təmsilçisi 3:0 hesablı qələbə qazanıb.

***Ağarza Elçinoğlu***

# Qara Qarayev: "Qarabağ"la oyunda mübahisəyə açıq iki epizod var idi

***"Qarabağ"a qarşı oynamaq hər zaman çətindir". Bu sözləri AZƏRTAC-a açıqlamasında "Araz-Naxçıvan" komandasının futbolçusu Qara Qarayev Azərbaycan Kubokunun yarımfinal mərhələsinin cavab oyununda "Qarabağ"a 0:3 hesabı ilə məğlub olduqları oyun barədə danışarkən deyib.***

O, meydanda layiqli mübarizə apardıqlarını bildirib: "Yaxşı hücumlar qura bildik. Real qol şanslarımız oldu. İmkanlarımızdan yararlana bilsəydik, bəlkə də fərqli ssenari ola bilərdi".

Q.Qarayev matçda iki epizodun mübahisəyə açıq olduğunu söyləyib: "Oyun vaxtı iki müəmmalı epizod var idi. Birincisi, məncə, Karlos Jatoba ilə Bəhul Mustafazadə arasında olan vəziyyət penalti idi. Hakimin dediyinə görə, orada ciddi nəsə yox idi. Biz də bir söz deyə bilmərik. İkincisi isə Yassin Benziyanın hərəkəti idi. Referi həmin epizoda sarı vərəqə göstərməklə kifayətləndi".

Təcrübəli yarımmüdafiəçi "Araz-Naxçıvan"ın yaxşı yerlərə layiq olduğunu söyləyib: "Yanvardan sonra heyətlə bağlı ciddi problemlərimiz oldu. Mən də bir ay oynamadım. Zədəli futbolçuların geri dönməsi və onların optimal forma yığması vaxt apardı. Buna baxmayaraq, sonadək döyüşəcəyik. Avrokuboklara getmək bizim üçün stimul olacaq".

Qeyd edək ki, Naxçıvan klubu iki görüşün nəticəsinə əsasən, "Qarabağ"a 1:3 hesabı ilə uduzaraq kubokla vidalaşıb.




# Azərbaycanın üçqat Paralimpiya çempionu dünya seriyasında mübarizə aparacaq



***Üçqat Paralimpiya çempionu olan Azərbaycan paraüzgüçüsü Raman Saley bu ilin ilk yarışında mübarizə aparacaq.***

Milli Paralimpiya Komitəsindən bildirilib ki, o, ABŞ-ın İndianapolis şəhərində keçiriləcək Dünya Paraüzgüçülük Seriyasında qüvvəsini sınayacaq.

Start götürən yarışa aprelin 26-da yekun vurulacaq.

# "Yuventus" "Parma"ya uduzdu

***İtaliya A Seriyasında 33-cü turun oyunları keçirilir.***

"Unikal" xəbər verir ki, səfərdə "Parma"nın qonağı olan "Yuventus" 0:1 hesabı ilə uduzub.

Bu matçdan sonra "Yuventus" 59 xalla 5-ci, "Parma" isə 31 xalla 15-ci pillədə qərarlaşıb.

# Arda "Real"a qələbə qazandırdı

***İspaniya La Liqasında 33-cü turun oyunları davam edir.***

"Unikal" xəbər verir ki, bu gün 4 oyun keçirilib.

"Selta" evdə "Vilyarreal"a, "Atletik" "Las Palmas"ı, "Alaves" isə "Real Sosyedad"a qalib gəlib. "Real" səfərdə "Xetafe"dən üstün olub - 1:0. Madrid klubunun qolunu türkiyəli yarımmüdafiəçi Arda Güler vurub.

**23 aprel**

"Atletik" - "Las Palmas" - 1:0
Qol: İ.Uilyams, 5.
"Selta" - "Vilyarreal" - 3:0
Qollar: F.Lopes, 5. B.İqlesias, 53. Y.Aspas, 87-pen.
"Alaves" - "Real Sosyedad" - 1:0
Qol: Tenalya, 65.
"Xetafe" - "Real" - 0:1
Qol: A.Gülər, 21.

# "Milan" "İnter"i məğlub edərək finala yüksəldi

***Futbol üzrə İtaliya Kubokunda ilk finalçı bəlli olub.***

"Unikal" xəbər verir ki, yarımfinal mərhələsinin cavab oyununda "İnter" və "Milan" komandaları üz-üzə gəliblər. Görüş "rossonerilər"in 3:0 hesablı qələbəsi ilə yekunlaşıb.

İki oyunun nəticəsinə əsasən, "İnter"i 4:1 hesabı ilə üstələyən komanda adını həlledici raunda yazdırıb.

# Koman "Bavariya"ya 50 milyon qazandıracaq

***Kinqsli Koman mövsümün sonunda "Bavariya"nı tərk edə bilər.***

"Unikal" xəbər verir ki, franslı futbolçu Səudiyyə Ərəbistanından təklif alıb.

Münhen klubu Komanı 50 milyon avroya satmağa hazırdır. 28 yaşlı cinah hücumçusunun adının açıqlanmadığı klubda illik 25 milyon maaş alması gözlənilir. Kinqsli Asiya qitəsinə yollanmasa onun "Arsenal"a keçməsi gözlənilir.

Qeyd edək ki, Koman cari mövsümdə bütün turnirlərdə 37 matçda 7 qol və 4 ötürmə ilə yadda qalıb.

# "Qarabağ" yeni rekorda imza atdı

***"Qarabağ" Azərbaycan Kubokunda yeni rekorda imza atıb.***

"Unikal" PFL-in saytına istinadən xəbər verir ki, Ağdam klubu tarixində 12-ci dəfə turnirin finalına yüksəlib.

Qurban Qurbanovun komandası yarımfinalda "Araz-Naxçıvan"ı mübarizədən kənarlaşdırıb - 0:1, 3:0.

Bununla da 12-ci dəfə finala vəsiqə qazanan "Qarabağ" 11 dəfə buna nail olan "Neftçi"ni geridə qoyub.

Ağdam təmsilçisi əvvəlki 11 finalın 8-də - 1993, 2005/06, 2008/09, 2014/15, 2015/16, 2016/17, 2021/22, 2023/24 mövsümlərində kuboku qazanıb. Üç dəfə - 1995/96, 1997/98 və 1999/2000 mövsümlərində finalda uduzub.

# "Arsenal" "Tottenhem"in antirekordunu təkrarladı

***"Arsenal" İngiltərə Premyer Liqasının antirekordunu təkrarlayıb.***

QOL.az xəbər verir ki, bu barədə "Opta" məlumat yayıb.

Komanda 34-cü turda "Kristal Pelas"la görüşdə (2:2) qələbəni əldən verib. "Arsenal" matçın sonunda qol buraxıb. Həlledici qolu 83-cü dəqiqədə fransalı hücumçu Jan-Filip Mateta vurub. Beləliklə, "topçular" Premyer Liqanın son bir mövsümdə əldən verdiyi qələbələrin sayna görə antirekordunu təkrarlayıb.

"Arsenal" 2024/25 mövsümündə öndə olmaqla 9 dəfə qələbəni əldən verib.

Qeyd edək ki, "Tottenhem" də 2007/2008 mövsümündə 9 dəfə qələbəni əldən verib.